YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
1 mart 2025-ci il, şənbə
№ 038 (6866)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!



# Azərbaycan - Afrika münasibətləri yeni mərhələdə

Bax səh. 2

# Siyasi birlik, milli həmrəylik...

Bax səh. 3



## 16 məsələ müzakirə edildi

Bax səh. 4

## İstanbulda tarixi görüş

Xəbər verildiyi kimi, Rusiya və ABŞ nümayəndələri arasında İstanbulda növbəti görüş keçirilib. Əsasən ikitərəfli əlaqələrə, xüsusilə də səfirliklərin fəaliyyəti ilə bağlı məsələlərə həsr olunan müzakirənin aparılması ilə bağlı razılıq daha əvvəl Səudiyyə Ərəbistanında aparılan danışıqlar zamanı əldə olunub. ABŞ Dövlət Departamenti söhbəti məhsuldar adlandırıb. Xatırladaq ki, hələ fevralın 18-də Ər-Riyadda Rusiya və ABŞ nümayəndə heyətlərinin uzun müddətdən sonra ilk yüksək səviyyəli görüşündən əvvəl Dövlət katibi Marko Rubio bəyan etmişdi ki, Moskva və Vaşinqtondakı səfirliklərin işi ilə bağlı ikitərəfli məsələlərin həlli zəruridir. Onun sözlərinə görə, qurulacaq rabitə, əlaqələndirmə Ukrayna nizamlanmasının müzakirəsinə kömək edəcək. Bu mənada, Səudiyyə Ərəbistanında keçirilən görüşdə tərəflər tez bir zamanda səfirlərin təyin edilməsi və diplomatik missiyaların fəaliyyətinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı məsləhətləşmələrə başlamaq barədə razılığa gəlmişdilər.

**Nələr danışıldı?**

Görüşdən öncə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Rusiya və ABŞ nümayəndə heyətlərinin İstanbulda aparacaqları danışıqların xüsusi olaraq səfirliklərin normal fəaliyyətinə qaytarılması məsələsinə həsr olunacağını bildirmişdi. Vurğulanırdı ki, masada başqa müzakirə predmeti planı yoxdur. Düzdür, nümayəndə heyətlərinin tərkibi açıqlanmasa da, görüşə yüksəksəviyyəli diplomatların və ekspertlərin qatıldığını demək mümkündür. Qeyd edək ki, 6 saat yarım çəkən görüş ABŞ-ın İstanbuldakı baş konsulunun iqamətgahında təşkil olunub və mətbuata qapalı formatda...

Bax səh. 6



## Tərkibi dəyişsə də, mahiyyəti dəyişmir...

Bax səh. 4

## Daha çevik və səmərəli...

Prezident İlham Əliyevin "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında" fərmanına əsasən, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC Dəmir Yollarına qoşulmaqla yenidən təşkil ediləcək. Məqsəd dəmiryol nəqliyyatı sahəsində nəqliyyat əməliyyatlarını və logistika proseslərini daha səmərəli və operativ qaydada həyata keçirmək, eləcə də dəniz nəqliyyatına olan ehtiyacların daha dolğun ödənilməsini təmin etməkdir. Yeni strukturun formalaşdıqdan sonra bu sahədə ali idarətmə funksiyasını isə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) həyata keçirəcək.

Dəmir Yolu və Beynəlxalq Dəniz Ticarət Limanının birləşdirilərək yeni funksional struktura çevrilməsi dövlət şirkətlərində aparılan yeni idarəetmə modelinin tələblərinə əsaslanır...

Bax səh. 3

## "Kimberli Sxemi"nə qoşulma nə vəd edir?

Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, Azərbaycanın "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulması üçün təkliflər hazırlanacaq. Verilmiş tapşırığa əsasən, emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulur.

Dünyada hər il müxtəlif gizli sxemlər üzrə brilyant, almaz və digər qiymətli metalların ticarətinə rast gəlinir ki, bu da qlobal emal-sənaye təchizatının zəncirinə ciddi zərərlər vurur. Bu məsələ qlobal icmanı, o cümlədən BMT-ni də dərindən narahat etdiyindən almazın qanunsuz ticarətinin qarşısını almaq üçün idxal-ixrac-istehsal-emal proseslərinin müxtəlif sxemlərini hazırlayaraq tətbiq...

Bax səh. 3

## Ekosid fəaliyyətinə son!

Cənubi Qafqaz coğrafiyasında onilliklər ərzində əməkdaşlığa və təhlükəsizliyə ciddi təhdidlər yaradan Ermənistanın pozuculuq fəaliyyətlərindən biri də bu ölkənin davamlı olaraq ətraf mühitə vurduğu ziyandır ki, bu da həm dövlətlər, həm də cəmiyyətlər səviyyəsində ciddi narahatlıq doğurur. "Environmental Protection First" (EPF) Koalisiyası tərəfindən Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə interaktiv rəqəmsal xəritənin bu günlərdə ictimaiyyətə təqdim edilməsi də bu narahatçılığın ifadəsidir. İnfobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərində hazırlanıb.

**Peşəkar komanda tərəfindən hazırlanan unikal resurs**

Ermənistan bir qayda olaraq dağ-mədən müəssisələrinin fəaliyyəti barədə geniş məlumatları...

Bax səh. 5

## Yeni inflyasiya gözləntiləri

"S&P Global" (S&P) beynəlxalq reytinq agentliyi 2025-ci ildə Azərbaycanda orta illik inflyasiyanın 4 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Təşkilatın dünya ölkələrində qiymət indeksi ilə bağlı yeni hesabat sənədində qlobal inflyasiya göstəricisinin cüzi artacağına dair ehtimallar əksini tapıb. "S&P"nin proqnozlarına görə, ölkəmizdə inflyasiya cari ilin sonunda azalmağa doğru istiqamətlənəcək, 2026-cı ildə isə bu rəqəm 3 faizə düşəcək.

Digər beynəlxalq maliyyə institutlarının gözləntiləri də təxminən eynidir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanla bağlı inflyasiya gözləntiləri cari il üzrə 3,6 faiz, 2026-cı il üzrə isə 3,1 faizə bərabərdir. Niderlandın "ING Group"unun apardığı qiymətləndirmədə isə ölkəmizdə istehlak qiymətlərinin 2025-ci ildə 4,8 faiz, 2026-cı ildə isə 4,7 faiz olacağına dair ehtimallar yer alıb...

Bax səh. 6



## Öcalan PKK-ya çağırış etdi

Bax səh. 7



## Arktika necə "bölünəcək"?

Bax səh. 7

# Azərbaycan - Afrika münasibətləri yeni mərhələdə

Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasət kursu çoxvektorlu olması ilə səciyyələnir. Ölkəmiz beynəlxalq birlik tərəfindən heç kimdən asılı olmayan, eyni zamanda, davamlı şəkildə qlobal həmrəyliyin möhkəmlənməsinə sanballı töhfələr verən ləyaqətli və xoşməramlı dövlət kimi tanınır. Bunun təsdiqi olaraq Azərbaycanın dünya miqyasında dostlarının sayının artması qürurverici haldır.

## Afrika qitəsi ölkələri ilə siyasi dialoqun güclənməsi

Bu kontekstdə Azərbaycanla Afrika qitəsi ölkələri arasında siyasi dialoqun yüksələn xətlə inkişafı xüsusi diqqət çəkir. Ölkəmizin qlobal və regional miqyasda artan nüfuzu, dinamik inkişafı və güclü potensialı, eləcə də Prezident İlham Əliyevin nüfuzlu Lider kimi yürütdüyü uğurlu siyasət Afrika ölkələrinin Azərbaycanla əməkdaşlığa marağını getdikcə daha çox artırır. Bir sıra Afrika ölkələrinin dövlət başçıları respublikamıza səfər etmək, ikitərəfli münasibətləri daha da gücləndirmək niyyətlərini ifadə ediblər. Elə bu günlərdə Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo respublikamızda rəsmi səfərdə olub. Səfər çərçivəsində bir sıra mühüm tədbirlər baş tutub, ikitərəfli gündəliyə aid müxtəlif məsələlər ətrafında aktual müzakirələr aparılıb. Eyni zamanda, ikitərəfli siyasi dialoqun getdikcə yüksələn səviyyəsindən məmnunluqlarını bildirən prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.



Azərbaycanın Afrika dövlətləri ilə əlaqələrinin intensivləşməsindən söhbət açarkən ölkəmizin Qoşulmama Hərəkatında (QH) uğurlu təmsilçiliyinin önəmini ayrıca qeyd etmək lazımdır. Respublikamızın Afrika dövlətləri ilə əlaqələrinin dinamik inkişafı Azərbaycanın QH-na sədrliyi dönəminə təsadüf edir. Ölkəmizin beynəlxalq təsisata 2019-cu ildə başlayan sədrliyi 2022-ci ildə bitməli idi. Ancaq Azərbaycanın səmərəli fəaliyyətinin yüksək dəyərləndirilməsinin əlaməti olaraq QH-na üzv dövlətlər respublikamızın sədrlik dövrünün daha bir il uzadılması ilə bağlı müraciət ünvanladılar. Azərbaycan isə bu etimada qarşılıq verərək müraciəti qəbul etdi. Respublikamızın quruma uğurlu sədrliyi dönəmində QH-nın beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb.

Ötən ilin noyabr ayında Azərbaycanın ev sahibliyi etdiyi COP29 iqlim konfransı ali səviyyədə təmaslar və müzakiələrin aparılması üçün növbəti fürsət oldu. Həmin görüşlər, həmçinin son illər ərzində Misir, Əlcəzair, Konqo və Somali kimi ölkələr ilə ali səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi və Keniya ilə əlaqələrin genişləndirilməsi Azərbaycanın Afrika siyasətinin inkişaf perspektivlərinin "yol xəritəsi"ni, hərtərəfli əməkdaşlıq üçün potensial istiqamətləri müəyyənləşdirdi.

Ötən il aprelin 4-5-də Konqo Prezidenti Deni Sassu-Nqessonun, bu il fevralın 11-14-də Somali Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfərləri zamanı ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi niyyəti ifadə olundu, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair hüquqi-normativ sənədlər imzalandı. Bütün bunlar isə Azərbaycanla Afrika qitəsi dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini təsdiqləyir.

## Azərbaycan ümid yeridir

Afrika qitəsi ölkələrinin Azərbaycana artan marağını şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Bu maraq həmçinin respublikamızın təşəbbüsləri əsasında müstəmləkəçilik siyasətinə qarşı beynəlxalq səviyyədə müqavimət hərəkatının formalaşmasından qaynaqlanır.





Müstəmləkəçilik keçmişin eybəcər qalığıdır. XXI əsrdə dövlətlər öz siyasətlərində sümürməçiliyə yol verməməlidirlər. Belə prinsipial mövqedən çıxış edən Azərbaycan Fransanın hələ də neokolonial hökmranlıq siyasətindən əziyyət çəkən keçmiş müstəmləkə ölkələrinin, o cümlədən Afrikada yerləşən Niger, Mali, Burkina-Faso, Seneqal və s. kimi ölkələrin öz hüquqları və suverenlikləri uğrunda, həmçinin fransız imperialist hökmranlığından xilas olmaq üçün apardıqları mübarizəyə dəstək verməkdədir. Artıq Bakı şəhəri Fransa tərəfindən hüquqları tapdanan ölkələrin və azsaylı xalqların öz azadlıqları uğrunda bir araya gəldiyi beynəlxalq platformaya çevrilib.

## Qvineya-Bisauda ölkəmizə artan maraq

Qitənin Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərən ölkələrindən biri də Qvineya-Bisaudur. Respublikamızla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci il avqustun 27-də qurulub. Azərbaycan ilə Qvineya-Bisau arasında əlaqələr əsasən BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində davam etdirilir. Qvineya-Bisau Respublikası İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. İƏT çərçivəsində Azərbaycanla bağlı qəbul edilən qətnamələrə Qvineya-Bisau dəstək göstərib. Qvineya-Bisaunun Prezidenti Umaro Moktar Sissoko Embalo bundan əvvəl ötən ilin noyabrında COP29-da iştirak etmək üçün Azərbaycanda səfərdə olub və Prezident İlham Əliyev ilə görüşüb. Eyni zamanda, digər səviyyələrdə təmaslar da davam etdirilir. Prezident Umaro Moktar Sissoko Embalonun Azərbaycana budəfəki səfəri əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, maraq doğuran məsələlərə dair müzakirələrin aparılması və razılaşmaların əldə edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

***Mübariz ABDULLAYEV***

# Yeni əməkdaşlıq istiqaməti - Qvineya-Bisau

## Afrika ölkələri ilə Azərbaycan arasında imzalanan sazişlər iqtisadi əməkdaşlığın inkişafı üçün əsaslı zəmin yaradır

Afrika ölkələri ilə Azərbaycan arasında iqtisadi sahədə əlaqələr ötən əsrin sonlarında qurulsa da, intensiv əməkdaşlıq təmasları son illərdə yüksəlməyə və davamlı xarakter almağa başlayıb. Həmçinin Afrika Birliyi Təşkilatının qitə ölkələrinin dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə bağlı atdığı iradəli addımlar bir çox region dövlətləri, o cümlədən Azərbaycanla münasibətlərin inkişafında yeni mərhələ açıb. 2011-ci ilin 15 yanvar tarixindən etibarən Azərbaycanın Afrika İttifaqı (Aİ) yanında müşahidəçi statusu alması isə müxtəlif iqtisadi bölmələrdə əlaqələrin qurulması üçün əsaslı zəmin yaradıb.

Respublikamızın bu qitə dövlətləri ilə beynəlxalq və regional təşkilatlarda fəal əməkdaşlığı, eyni zamanda, hökumət heyətlərinin qarşılıqlı səfərlərinin artması və mühüm anlaşma sənədlərinin imzalanması münasibətlərdə ciddi keyfiyyət dəyişikliklərinə səbəb olub. Xüsusilə də neft-qaz, mədənçilik sektorlarında əhəmiyyətli sazişlərin imzalanması perspektiv proqramların icrasını sürətləndirib.

### Enerji və müdafiə sənayesinin yeni ixrac bazarı

Azərbaycan Tunis, Cənubi Afrika Respublikası, Misir, Mərakeş, Liviya və Keniya ilə enerji sahəsində mühüm əlaqələr qurub, SOCAR ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsinə dair sazizlər imzalanıb. Eləcə də təbii minerallarla zəngin olan Misir, Keniya, Ekvatorial Qvineya, Əlcəzair, Nigeriya, Mərakeş, Liviya, Tunis, Seneqal və CAR-la mədənçilik sahəsində də bu cür əməkdaşlıq üçün analşmalar əldə edilib.



Azərbaycan və Afrika ölkələri ilə müdafiə sənayesi sahəsində əməkdaşlıq da gündəlikdə mühüm yer turur. Somali Prezidentinin ölkəmizə səfəri zamanı müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında sənəd imzalanıb. Bu günlərdə ölkəmizdə səfərdə olan Qvineya-Bisau Prezidentinin də Azərbaycanın müdafiə sektoru ilə yaxından tanış olması, komando hərbi hissələrindən birini ziyarət etməsi hərbi əməkdaşlıq üçün yaxşı fürsətdir və ölkəmizin hərbi təyinatlı məhsullarının ixracına imkan yaradır.

### "ASAN Xidmət" modeli qitə ölkələrində

Afrika dövlətləri Azərbaycan brendi olan "ASAN Xidmət" modelinə də böyük maraq göstərir. 2016-cı ilin dekabr ayında "ASAN Xidmət"in Afrika İttifaqının mənzil-qərargahında geniş təqdimat keçirilib. Qitə ölkələrinin nümayəndə heyətləri "ASAN Xidmət"in öz milli idarətmə sektorlarına gətirilməsi üçün Azərbaycanın təcrübəsini öyrənmək qərarına gəlib və dəfələrlə ölkəmizdə olublar. Qvineya-Bisau da bu modelə xüsusi önəm verir, Prezident Umaru Sisoku Embalonun "ASAN xidmət" mərkəzi ilə tanışlığı və Qvineya-Bisau Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu istiqamətdə səmərəli əməkdaşlığı ifadə edir.

"ASAN xidmət" təcrübəsinin ixracı istiqamətində, eyni zamanda, Esvatini, Konqo, Tanzaniya, Qambiya və Zimbabve ilə fəal danışıqlar davam etdirilir.

Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) tərəfindən Aİ vasitəsilə sosial-iqtisadi və humanitar böhrandan əziyyət çəkən Afrika dövlətlərinə maddi yardım göstərib.



Afrika ölkələri Azərbaycanın rəqəmsal texnologiyalar və süni intellekt, müasir kosmos sənayesinə də xüsusi maraq göstərir. Son 7-8 ildə əməkdaşlığın əsas istiqamətlərindən biri kimi "Azərkosmos" ASC ilə Afrika İttifaqı ölkələri arasında kommunikasiya və informasiya texnologiyaları üzrə əlaqələrin inkişaf etdirilməsini əhatə etməkdədir

### "Yaşıl enerji" sahəsində əməkdaşlıq

Afrika ölkələri ilə iqtisadi əlaqələr üçün möhkəm hüquqi-iqtisadi təməllər yaradılsa da, ticari dövriyyələrin həcmi yüksək deyil, ancaq güclü potensiallar mövcuddur və mövcud potensialları dəfərlərlə artırmaq imkanları genişdir. Bu məqsədlə tərəflər müxtəlif təşviqedici alətlərlə bu sahədə yeni yol xəritələri müəyyənləşdirməkdədir. Xüsusilə də Azərbaycanın qlobal və regional miqyasda artan nüfuzu, strateji nəqliyyat və logistika coğrafiyalarında mühüm mövqeyi bu qitə ilə tranzit bağlantıları artırmaq üçün təşviqedici kommunikasiya vasitələrindən istifadə etməsini labüdləşdirib.

Azərbaycan qitə ölkələri ilə minatəmizləmə sahəsində də əməkdaşlıqda maraqlıdır və bu istiqamətdə müzakirələr aparır. Qitənin 20-yə yaxın ölkəsi, o cümlədən Anqola, Çad, Konqo Demokratik Respublikası, Eritreya, Efiopiya, Mali, Mavritaniya, Niger, Nigeriya, Seneqal, Somali, Cənubi Sudan və Zimbabve bu problemlə üzləşib. Ölkəmizin bu sahədə geniş təcrübəsi faydalı əməkdaşlıq üçün yeni sahələrdən biridir.

Azərbaycan "yaşıl enerji" sahəsində də adıçəkilən qitə ölkələri ilə əməkdaşlıq planları nəzərdə tutur. Qvineya-Bisaunun ətraf mühit nazirinin ötən il Energetika Nazirliyində olarkən bu sahədə geniş fikir mübadiləsi aparılıb.

Beləliklə, Azərbaycanın əməkdaşlıq üçün yeni istiqamət olan Afrika ölkələri ilə əlaqələrində dinamizmin artması və imzalanan mühüm sazişlər ikitərəfli və çoxtərəfli münasibətlərin gələcək inkişafını daha da irəliyə aparacaq.

***E.CƏFƏRLİ***

# Daha çevik və səmərəli...



## Yeni islahatlar nəqliyyat və logistika əməliyyatlarının operativliyini təmin edəcək

**Prezident İlham Əliyevin "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında" fərmanına əsasən, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC Dəmir Yollarına qoşulmaqla yenidən təşkil ediləcək. Məqsəd dəmiryol nəqliyyatı sahəsində nəqliyyat əməliyyatlarını və logistika proseslərini daha səmərəli və operativ qaydada həyata keçirmək, eləcə də dəniz nəqliyyatına olan ehtiyacların daha dolğun ödənilməsini təmin etməkdir. Yeni strukturun formalaşdıqdan sonra bu sahədə ali idaretmə funksiyasını isə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) həyata keçirəcək.**

**Dəmir Yolu və Beynəlxalq Dəniz Ticarət Limanının birləşdirilərək yeni funksional struktura çevrilməsi dövlət şirkətlərində aparılan yeni idarəetmə modelinin tələblərinə əsaslanır. Belə ki, son illərdə idaretmə ilə bağlı həyata keçirilən islahatlar çərçivəsində dövlət müəssisələrinin diaqnostikası aparılır, müşahidə şuraları, müvafiq komitələr və koordinasiya ofisləri formalaşdırılır, korporativ idarəetmə standartları tətbiq edilir. Məqsəd daha yığcam, məqsədyönlü və dinamik idaretmə modelləri ilə səmərəliliyi təmin etməkdir.**

**Hazırkı yeni çağırışlar mərhələsində layihə idarəetməsi, risk menecment, investisiya və xəzinə siyasəti, pul vəsaitlərinin hərəkətinin idarə edilməsi, müəssisə resurslarının planlaşdırılması və sərmayə cəlbi kimi istiqamətlərdə islahatların aparılması əsas iqtisadi tələblər kimi daha da aktuallaşıb.**

# "Kimberli Sxemi"nə qoşulma nə vəd edir?

## Emal edilməmiş almazın idxal, ixracı, dövriyyəsi və saxlanılmasında yeni nəzarət sxemi tətbiq olunacaq

**Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, Azərbaycanın "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulması üçün təkliflər hazırlanacaq. Verilmiş tapşırığa əsasən, emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulur. Dünyada hər il müxtəlif gizli sxemlər üzrə brilyant, almaz və digər qiymətli metalların ticarətinə rast gəlinir ki, bu da qlobal emal-sənaye təchizatının zəncirinə ciddi zərərlər vurur. Bu məsələ qlobal icmanı, o cümlədən BMT-ni də dərindən narahat etdiyindən almazın qanunsuz ticarətinin qarşısını almaq üçün idxal-ixrac-istehsal-emal proseslərinin müxtəlif sxemlərini hazırlayaraq tətbiq edib. Problemin qarşısının alınması üçün beynəlxalq səviyyədə yeni mexanizmlərdən biri olaraq Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi (KPCS) daha effektiv strategiya kimi qəbul edilib. Bu təsisat Cənubi Afrikanın almaz paytaxtı sayılan Kimberlinin şərəfinə adlandırılıb.**

## Ölkəmizin beynəlxalq daşımalarda potensialı artacaq

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin ən axıcı qovşaqlarının yerləşdiyi regiondur, ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərində həm Şərq-Qərb, həm də Şimal-Cənub marşrutları üzrə tranzit həcmləri sürətlə artır. Təkcə, 2024-cü ildə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yük daşımaları təxminən 60 faiz artıb. Eyni zamanda, Azərbaycandan keçən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Qərb marşrutu üzrə yük daşımaları da 30 faiz yüksəlib. Bütün bunlar Azərbaycanın Avrasiya regionunda nəqliyyat-logistika qovşağı kimi mövqeyini gücləndirir.

Qlobal tələbatlara uyğun olaraq ölkəmiz öz nəqliyyat infrastrukturunu tam yeniləşdirir, Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının yükgötürmə gücünü artırır, dəmir yolu infrastrukturlarını bu dəhlizlərlə şaxələndirir. Nəticədə bu sistemli və əhatəli tədbirlər dəmir yolu- liman logistikası zəncirinin ötürücülük qabiliyyətinin yüksəldilməsinə xidmət edir. "Azərbaycan Dəmir Yolllları" və Beynəlxalq Dəniz Ticarət Limanının birləşdirilməsi də bu sahədə ahəngdarlığı, nəqliyyat ritminin keyfiyyətini artırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

## AZCON nəqliyyat şirkətlərini vahid çətir altında birləşdirir

Müasir geoiqtisadi reallıqlar, tranzit-logistika xətlərində meydana çıxan yeni fraqmentasiyalar beynəlxalq nəqliyyat daşınmalarında təmsil olunan şirkətlərin fəaliyyətində vahid siyasətin tənzimlənməsini də labüd edir. Bu baxımdan Yeni nəqliyyat qurumunun AZCON-nun idarəetməsinə verilməsi isə nəqliyyat sektorunun vahid çətir altında platforma kimi birləşdirilməsində və yeni institusional çərçivədə idarə olunmasında çevikliyi və səmərəliliyi artıracaq. Eyni zamanda, nəqliyyat sektorunun bağlantısını artırmaqla, rəqəmsallaşdırmanı da tamamlayacaq. Bu siyasət, eyni zamanda, tariflərin təkmilləşməsində və optimist tarif təyinetməsinə imkan yaradacaq.

Beləliklə, nəqliyyat və logistika, liman müəssisələrinin birləşdirilməsi və fəaliyyətinin yeni idarəetmə prinsiplərinə uyğunlaşdırılması nəqliyyat-tranzit sektorunda modernləşməni də təmin edəcək. Bu sahədə tətbiq edilən yeni alətlər isə əməliyyatların və inzibati prosedurların optimallaşmasına, koordinasiyanın yaxşılaşmasına və vahid platforma üzərindən tətbiqinə imkan verəcək. Eyni zamanda, tranzit daşınmaları zamanı vaxt və əməliyyatların müddətinin minimuma endirilməsinə, nəticədə Azərbaycan üzərindən həyata keçirilən yükdaşımalarının həcminin artmasına səbəb olacaq.

*E.CƏFƏRLİ*

## 90-a yaxın ölkə KPCS-yə qoşulub

BMT 2003-cü ildə Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemini təsdiqlənmiş qlobal proqram kimi dünya ölkələrinə tövsiyə edib. Sxem səmərəli nəzarət alətlərindən biri kimi diqqəti cəlb etdiyindən bir çox ölkələr KPCS-i dəstəkləyib. Hazırda 90-a yaxın ölkə bu prosesə qoşulub. Həmin ölkələr öhdəlik götürərək almazın ticari əməliyyat proseslərini bütünlüklə şəffaflıq mühitində təmin edilməsini həyata keçirir. Almaz xammalının, yəni emal edilməmiş məhsulun idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsinin vahid mühafizə sistemi təşkil olunur.

Azərbaycan "Kimberley Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tətbiqi sahəsində ötən illərdə beynəlxalq təcrübəni öyrənmək və mübadilə məqsədilə bu prosesdə uğur əldə etmiş müxtəlif ölkələrin nümayəndələri ilə görüşlər keçirib, məsləhətləşmələr aparıb. Rusiya Maliyyə Nazirliyi, bu ölkənin almaz yataqlarının işlənilməsi, almazların emalı və ixracı sahəsində ixtisaslaşan "Alrosa" SC-nin nümayəndələri və digər tərəflərlə Azərbaycanın İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, "Azərgold" QSC ilə görüşlərdə "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin həyata keçirilməsi haqqında ətraflı məsləhətləşmələr aparılıb. Bu çərçivədə emal edilməmiş təbii almazların dövriyyəsinin dövlət tənzimlənməsi və nəzarəti, istifadə edilən rəqəmsal həllər, o cümlədən elektron idarəetmə və nəzarət sistemləri sahəsində ikitərəfli fikir mübadiləsi aparılaraq perspektiv tətbiq imkanları nəzərdən keçirilib.

Azərbaycan digər dövlətlərin də bu sahədə gördüyü işləri, təcrübəni mənimsəmək üçün işləri davam etdirib və KPCS-ə qoşulmağa qərar verib.

Azərbaycan "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulmaqla bu beynəlxalq öhdəlikdən irəli gələn tələblər üzrə müvafiq məsuliyyət tədbirlərini üzərinə götürür. BMT-nin KPCS tövsiyələrində beynəlxalq sertifikatlaşdırma sxemindən irəli gələrək hər bir ölkənin öz milli sertifikatlaşdırma sistemlərinin yaratması əks olunub. Bu baxımdan Azərbaycan bu prosesdə yer almaq iradəsini ifadə etdiyindən sertifikatlaşdırma və rəqəmsallaşdırma məsələlərini də həll etməlidir. Tələblərə əsasən, ilk növbədə, emal edilməmiş almazın gömrük rəsmiləşdirilməsi bu prosesinin meyar və qaydalarına uyğunlaşdırılacaq. Dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə xammalın gemoloji xüsusiyyətlərinin müəyyən edilməsi üzrə laboratoriyalar yaradılacaq. Xammalın əldə edilməsi prosesi xüsusi razılıq sənədləri əsasında tənzimlənəcək ki, bu da

## Gemoloji laboratoriyalar və milli sertifikatlaşdırma sistemi yaradılacaq

müasir sertifikatlaşdırmaya əsaslanır. Müvafiq dövlət qurumu məhsulun istifadəyə təyinatı üçün forma və sertifikat verəcək. Eyni zamanda, həmin sahədə fəaliyyətin təşkili üçün Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən zəruri nəzarət tədbirləri görüləcək.

Kimberli Sxeminin ən mühüm tələblərindən biri də qeyd olunan fəaliyyət sahəsinin rəqəmsallaşdırılmasıdır. Bu istiqamətdə də beynəlxalq təcrübəyə istinad edilməklə, müasir rəqəmsal izləmə və nəzarət platforması qurulacaq.

Beləliklə, Azərbaycanın "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulması qlobal miqyasda qiymətli metalların, o cümlədən almazın idxalı, ixracı və satışı proseslərinə nəzarəti təmin edən, şəffaflıq meyarlarına xüsusi diqqət yetirən ölkə kimi KPCS ailəsində yer almasına səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Siyasi birlik, milli həmrəylik...

## İnkişafımız üçün vacib şərtlərdən biridir

**Ölkəmizdə aparılan davamlı islahatlar iqtisadi-sosial, hərbi, eyni zamanda, siyasi-ictimai mühitdə mühüm irəliləyişlərə yol açıb. Xüsusilə, siyasi islahatlar ölkədə yeni siyasi konfiqurasiyanın əsasını qoyub - bu, həm də yeni siyasi münasibətlər sistemi yaradıb. Artıq ənənəyə çevrilmiş iqtidar-müxalifət görüşləri milli və qlobal çağırışların həllində mühüm ştrix kimi çıxış edir. Bu yeni siyasi konfiqurasiyanın uğurla təmin edilməsi, siyasi dialoq mühitinin gücləndirilməsi isə ölkədə siyasi birliyin daha da möhkəmlənməsinə yol açır. Bu xoş və əsaslı ənənə davam etdirilir - artıq siyasi mühitin yeni standartlara, yeni çağırışlara uyğun inkişafı üçün əsaslı zəmin formalaşıb. Fevralın 25-də siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə Prezident Administrasiyası tərəfindən Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Hesablama Palatasının, Ədliyyə və Maliyyə nazirliklərinin, 24 siyasi partiyanın nümayəndələrinin və həmçinin tanınmış alimlər, politoloqlar, siyasi şərhçilər, internet televiziya kanalları və onlayn media subyektlərinin təmsilçilərinin iştirakı ilə keçirilən "Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması" mövzusunda dəyirmi masa yeni siyasi münasibətlər sisteminin inkişafına əsaslı töhfə sayıla bilər.**



## Arzuxan Əlizadə: Belə görüşlər müsbət tendensiyadır və müsbət qiymətləndirilir

Görüşdə iştirak edən və təəssüratlarını "Yeni Azərbaycan"a bölüşən Milli İstiqlal Partiyasının sədri, Milli Məclisin deputatı Arzuxan Əlizadə bildirib ki, AMİP tədbirin keçirilməsini təqdir edir: "Partiyamız, ümumilikdə, ölkədə müxtəlif məsələlərlə bağlı siyasi təşkilatların bir araya gəlməsini, dəyirmi masa arxasında məsələlərin müzakirə edilməsini, problemlərin həlli istiqamətlərini birgə müzakirə etməsini dəstəkləyir. Bu baxımdan da analoji tədbirlərin keçirilməsi tərəfimizdən yüksək qiymətləndirilir. Artıq bir neçə ildir ki, ölkədə yeni siyasi konfiqurasiya formalaşıb. 2019-cu ilin noyabrında Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılıb. Ötən dövr ərzində siyasi partiyalarla əlaqələr genişləndirilib. Bu prosesdə təbii ki, yeni yaradılmış şöbənin və onun rəhbərliyinin kifayət qədər əhəmiyyətli rolu var".

A.Əlizadə vurğulayıb ki, görüşdə bir sıra dövlət strukturlarının rəsmiləri və siyasi mühitdə təmsil olunan ziyalılarımız iştirak edib. "Keçirilən bu tədbirdə dövlət qurumlarının nümayəndələri ilə yanaşı, ölkədə fəaliyyət göstərən partiyaların rəhbərləri, eləcə də politoloqlar, alimlər, KİV-lərin təmsilçiləri iştirak edirdi. Bu kimi görüşlər siyasi partiyaların ölkənin siyasi gündəmindəki iştirakını daha da aktual edəcək. Bir daha vurğulayım ki, belə görüşlər müsbət tendensiyadır və müsbət qiymətləndirilir", - deyə AMİP sədri əlavə edib.

## Fəzail Ağamalı: Bu çox müsbət bir addımdır...



Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı bildirib ki, Prezident İlham Əliyevin iradəsinə söykənən siyasi partiyaların yeni konfiqurasiyası ötən zaman kəsiyində özünün yeni inkişaf mərhələsinə qədəm qoyub: "Bu inkişaf mərhələsində ortaya qoyulan hədəflərə çatmaq üçün mühüm addımlar atılıb. Bu addımların effektivliyində isə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi və orada təmsil olunan peşəkar insanlar xüsusi rol oynayır. Ötən dövr ərzində siyasi partiyalarla iqtidar arasında sağlam və şəffaf əməkdaşlıq formalaşdı. Ciddi əhəmiyyət kəsb edən və siyasi birliyimizin növbəti təcəssümü olan dəyirmi masa partiyalararası və iqtidar-müxalifət münasibətlərində geniş perspektivlər yaradan mühüm hadisə kimi qiymətləndirilməlidir".

F.Ağamalı deyib ki, fevralın 25-də baş tutan toplantı özündən əvvəlkilərdən bir sıra xüsusiyyətlərinə görə seçilir. "Bu dəfəki toplantıya politoloqlar, elm adamları, eyni zamanda, bəzi aparıcı KİV-lərin rəhbərləri də dəvət olunmuşdular. Bu çox müsbət bir addımdır. Tədbirdə bir daha milli həmrəyliyimizin yaranmasında, inkişafında siyasi partiyalar arasındakı birliyin ciddi əhəmiyyət kəsb etdiyi xüsusi olaraq önə çəkildi. Bu toplantı həm də bir çox hədəfləri özündə əks etdirdi. Bundan sonra da milli maraqlar və dövlət maraqları ətrafında birləşərək Azərbaycanın taleyüklü məsələlərin həllində dövlətimiz və xalqımızla bir olmağın zəruriliyi, həm Ədalət Vəliyevin çıxışında, həm də siyasi partiya rəhbərlərinin çıxışlarında xüsusi olaraq yer aldı. Eyni zamanda, gələcək dövrdə fəaliyyətin yeni çağırışlar, müasir siyasi dövrə uyğun şəkildə qurulması məsələsi ilə bağlı maraqlı təkliflər səsləndirildi. Bu gün demək olar ki, bütün siyasi qüvvələr dövlətin maraqları ətrafında birləşib. Yalnız marginal AXCP burada istisnalıq təşkil edir. Bu birlik Azərbaycanın güclənməsinə, tarixi torpaqlarımıza sahib çıxmaq üçün şərəfli xidmətimizə hədəflənməlidir. Ümidvaram ki, ciddi tarixi əhəmiyyət kəsb edən toplantı siyasi partiyaların birliyində yeni bir mərhələnin əsasını qoyacaq və bundan sonra əməkdaşlığımız daha yüksək səviyyədə davam edəcək", - deyə AVP sədri vurğulayıb.

*P.İSMAYILOV*

## Milli Məclisin iclasında...

# 16 məsələ müzakirə edildi

Fevralın 28-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 16 məsələnin daxil olduğunu bildirib.

S.Qafaraova, eləcə də fevralın 18-dən 20-dək Bakıda keçirilən Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası və digər tədbirlər barədə məlumat verib. O qeyd edib ki, Asiya Parlament Assambleyası hazırda



Milli Məclisin sədrlik etdiyi 5 beynəlxalq parlament təşkilatından biridir. Digər təşkilatlar isə Türk Dövlətlərinin Parlament Assambleyası, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasıdır. Parlament diplomatiyası üçün mühüm platforma olan Asiya Parlament Assambleyasının sessiyasında xarici ölkələrin və beynəlxalq təşkilatların 35 nümayəndə heyəti, ümumən 280 nəfərdən çox nümayəndə iştirak edib, "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusu ətrafında müzakirələr aparılıb. Müzakirələrdə Asiya Parlament Assambleyasının üzvü olan ölkələrin parlament sədrləri, sədr müavinləri, üzvləri və Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi çıxış ediblər. Onlar regional problemlərin həllində və regional inteqrasiyanın sürətlənməsində Asiya Parlament Assambleyasının mühüm rolu barədə danışıblar.

**Bakı Bəyannaməsində Ermənistandan qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmalarından da bəhs olunur**

"Asiya Parlament Assambleyasının sədri kimi mən öz çıxışımda ötən dövr ərzində təşkilatın institusional inkişafı istiqamətində Milli Məclis tərəfindən irəli sürülmüş təşəbbüslər haqda danışdım. Sevindirici haldır ki, məhz bizim sədrliyimiz dövründə görülmüş işlər nəticəsində Asiya Parlament Assambleyasının mövcud strukturlarının fəaliyyəti daha da gücləndirilib və bu ərəfədə Oman Sultanlığının Şura Məclisi təşkilata yeni üzv, Belarus Milli Assambleyasının Respublika Şurası isə müşahidəçi kimi qəbul olunub. Çıxışımda mən Milli Məclisin sədri kimi, dünyanın qarşılaşdığı problemlərə və onların aradan qaldırılması yollarına Azərbaycanın baxışları barədə fikirlərimi bölüşdüm",-deyən S.Qafarova əlavə edib ki, Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında Bakı Bəyannaməsi və müxtəlif mövzularda 29 qətnamə qəbul edilib. Asiya Parlament Assambleyasının qəbul etdiyi Bakı Bəyannaməsinin bir bəndində Ermənistandan qovulmuş azərbaycanlıların ata-baba yurdlarına qayıtmalarının təmin olunması məqsədilə səylərin səfərbər edilməsi üçün çağırış edilir. Spikerin fikrincə, təşkilatın 15-ci plenar sessiyası həm forma, həm də məzmun baxımından yüksək səviyyəli bir tədbir olaraq qarşıya qoyulan bütün hədəflərə nail oldu.

**MDB Oyunlarının keçirilməsi ilə bağlı lazımi işlər görülür**

Daha sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Deputat Sahib Alıyev çıxışında Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin bəyanatını pisləyib. Onun sözlərinə görə, bu bəyanat Azərbaycana qarşı növbəti qərəzin göstəricisidir.

Deputat Müşfiq Cəfərov isə növbəti MDB Oyunlarının keçirilməsi ilə bağlı Gəncə şəhərində abadlıq işlərinin görüldüyünü diqqətə çatdırıb. Onun sözlərinə görə, Gəncə Azərbaycanın ikinci böyük şəhəri olmaqla yanaşı, mühüm logistika və sənaye mərkəzinə çevrilə bilər: "Prezident İlham Əliyev Gəncə şəhərini hər zaman diqqət mərkəzində saxlayır və şəhərin inkişafı istiqamətində mütəmadi olaraq müvafiq fərmanlar və sərəncamlar imzalayır. Bu sənədlərdən biri də Gəncə şəhərində Sənaye Parkının yaradılması ilə bağlı fərmandır. Gəncə Sənaye Parkı şəhərin sosial-iqtisadi inkişafına böyük töhfə verə biləcək strateji bir layihədir. Gəncə Sənaye Parkının yeni iş yerlərinin və məşğulluq artımına şərait yaratmaqla yanaşı, yerli istehsalın və sənayenin inkişafına böyük töhfəsi olacaq".

**Ermənistan beynəlxalq konvensiyaların tələblərini pozur**

Millət vəkili Pərvanə Vəliyeva çıxışında bildirib ki, Ermənistan regionda ekoloji terror törətməkdə davam edir. Onun sözlərinə görə, ekoloji zərərin transsərhəd xarakteri Cənubi Qafqaz və Xəzəryanı ölkələrin ətraf mühiti üçün böyük təhdiddir: "Bu fəaliyyət beynəlxalq səviyyədə qəbul edilmiş ekoloji standart və prinsiplərə, xüsusən də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə Espoo Konvensiyasının tələblərinə ziddir.

Bu Konvensiya üzrə transsərhəd təsirlərə səbəb olan sənaye obyektlərinin ətraf mühitə təsiri ilə bağlı qiymətləndirmə hesabatları bütün təsirə məruz qalan tərəf ölkələrə təqdim edilməlidir. Lakin Ermənistanın qonşu ölkələr, o cümlədən Azərbaycanla razılaşdırmadan, ətraf mühitə ziyan vuran mədənçilik fəaliyyəti aparması bu Konvensiyanın açıq şəkildə pozulmasıdır. Ermənistan bu ekoloji cinayətləri törətməklə, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə də nail olunmasını çətinləşdirir və vətəndaş cəmiyyəti tərəfindən dəfələrlə edilən çağırışlara məhəl qoymamaqla Orhus Konvensiyasının tələblərini pozur. Bu isə onun şəffaflığa və məsuliyyətli ekoloji idarəetmə prinsiplərinə sadiqliyinə ciddi şübhələr yaradır. Ermənistanın iqtisadi inkişafı ətraf mühitin çirklənməsi və su hövzələrinin məhv edilməsi hesabına aparılmamalıdır. Bu ölkə beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərini dərhal dayandırmalıdır".

Deputat Cavanşir Feyziyev isə çıxışında bildirib ki, Xocalı faciəsinin ildönümü ərəfəsində Avropa İttifaqı - Ermənistan Parlament Tərəfdaşlığı Komitəsi adından verilmiş bəyanat növbəti dəfə Ermənistanın ölkəmizə qarşı düşmənçilikdən, Avropa Parlamentinin isə siyasi ikiüzlülükdən və korrupsiyadan əl çəkmədiyini bir daha göstərir. Onun sözlərinə görə, bu bəyanat onu göstərir ki, baş nazir Paşinyan bir tərəfdən Ermənistan hakimiyyəti adından sülhdən danışdığı halda digər tərəfdən ölkəmizə qarşı böhtan və iftira xarakterli qarayaxma kampaniyaları təşkil etdirir: "Avropa Parlamenti isə ölkəmizə qarşı qərəzli niyyətlərini guya "bölgəyə sülh gətirmək istəyi" adı altında pərdələməyə çalışır. Avropa Parlamentində atılan addımlar bir daha sübut edir ki, Avropa Cənubi Qafqazda sülhün bərqərar olunmasına qarşı çıxır və hər vəchlə buna mane olmağa çalışır".

İclasda, həmçinin millət vəkilləri Nizami Səfərov, Tural Gəncəliyev, Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Rəşad Mahmudov və başqaları aktual mövzular barədə çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

**Növbəti iclas martın 7-də keçiriləcək**

Daha sonra gündəlikdəki məsələlər müzakirəyə çıxarılaraq qəbul olunub.

Sonda spiker Sahibə Qafarova Milli Məclisin növbəti iclasının martın 7-də keçiriləcəyini bildirib.

***Nardar BAYRAMLI***

# Gerçək erməni xisləti...

## Sumqayıt hadisələrini bu dərəcədə təhrif etmək yalnız erməni "təfəkkürünün məhsulu" ola bilər

Sumqayıt hadisələrinin baş verməsindən 37 il ötdü. 1988-ci il fevralın 28-də baş vermiş bu hadisələr SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı təşkil etdiyi və həyata keçirdiyi təxribatlardan biri olub. Respublikamıza qarşı məkrli planlar quran, azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti aparan erməni millətçiləri həmin gün daha bir təxribata əl atıblar. Məqsəd isə dünya ictimaiyyətində yanlış rəy formalaşdırmaq, anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmaq idi. Bu qanlı ssenari ilə guya ermənilərin əzildiyi, haqlarının tapdalandığı dünya ictimaiyyətinə təqdim edilməklə, əslində, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı, işğalçılıq siyasətinin əsası qoyulub.



Lakin bütün şahid ifadələri Sumqayıt hadisələrinin təşkilatçısının erməni, əvvəllər iki dəfə məhkum edilmiş Eduard Qriqoryan olduğunu sübut edir. E.Qriqoryan Sumqayıt hadisələri zamanı beş erməni şəxsən öldürüb. Sumqayıtda etnik zəmində törədilən iğtişaş həmin dövrdə bu sıradan olan məqsədyönlü təxribatların kuliminasiyası idi.

Xatırladaq ki, 1988-ci il fevralın 26-da Sumqayıtın mərkəzi meydanında Azərbaycanın Qarabağ regionunda ermənilər tərəfindən iki azərbaycanlı gəncin öldürülməsinə etiraz olaraq nümayiş keçirilib. Erməni ekstremistləri və təxribatçı agentlər tərəfindən bu etiraz aksiyası iğtişaşa doğru təhrik edilib. Ermənistan və erməni lobbisi dairələri tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilsə də, dövlətimizin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçilərinin və onların havadarlarının öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib.

**Ermənilər qətlə yetirilənlərin sayını məqsədli şəkildə şişirdir**

Yeri gəlmişkən, fevralın 27-də Ermənistanın Xarici İşlər Nazirliyi yaydığı bəyanatda Sumqayıt hadisələrini təhrif edib, hadisə zamanı 32 nəfər öldüyü halda, guya yüzlərlə erməninin qətlə yetirildiyi iddia olunub. Müasir dövrdə istintaq və məhkəmə materiallarının arxivlərdə saxlanıldığı, hadisə şahidlərinin bir çoxunun həyatda olduğu bir vaxtda ölüm sayının bu qədər şişirdilməsi əsl erməni xislətinin göstəricisidir.

Məsələyə münasibət bildirən Azərbaycanın Xarici İşlər Nazirliyi bəyan edib ki, Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı 27 fevral tarixli bəyanatında ölkəmizə qarşı irəli sürdüyü iddialar tamamilə əsassız olmaqla yanaşı, tarixi faktların təhrif edilməsi və saxtalaşdırılmasıdır. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə qeyd edib ki, bu bəyanat 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdləridir: "Ermənistan XİN-nə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi. Həmçinin qeyd edək ki, SSRİ Baş Prokurorluğu tərəfindən hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanlar müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması sübut edir ki, bu iğtişaşlar azərbaycanlı əhali tərəfindən həyata keçirilməmişdi".

**XİN: Ermənistanda 200-dən çox azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib**

Ermənistan XİN-in diqqətinə çatdırılıb ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb.

Bundan əlavə, 1988-ci il 27-29 fevral tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib, həmçinin bir nəfər ölüm cəzası alıb. Müqayisə üçün onu da qeyd edək ki, 1980-ci illərin sonlarında Ermənistan azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan 300 minə yaxın əhalinin zorla qovulması zamanı 200-dən çox azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib. Bununla yanaşı, Azərbaycan ərazilərinə qarşı hərbi təcavüz zamanı Ermənistanın Xocalı daxil olmaqla, bir çox şəhər və kəndlərdə törətdiyi çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətləri törədənlərdən heç kimin bu günədək hüquqi məsuliyyətə cəlb olunmadığı Ermənistan XİN-ə məlumdur.

"Ermənistan XİN-nə xatırladırıq ki, Azərbaycan dövləti beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin bir hissəsində Ermənistanın onilliklər boyu davam edən hərbi işğalına son qoyub, ərazi bütövlüyü və suverenliyini təmin edib. Ermənistan tərəfinin guya ermənilərə qarşı 2023-cü ildə "etnik təmizləmə" siyasəti həyata keçirildiyi barədə iddialar səsləndirmək əvəzinə, nəinki indiki Ermənistan ərazisində, eləcə də işğal dövründə azərbaycanlılar və Azərbaycan irsinə qarşı törətdiyi cinayət əməllərinə nəzər yetirməsi daha faydalı olardı", - deyə Ayxan Hacızadə vurğulayıb.

***Nardar BAYRAMLI***

# Tərkibi dəyişsə də, mahiyyəti dəyişmir...

## Avropa Parlamentinin növbəti qərəzi

## Son bəyanat "köhnə qitə"nin deqradasiyaya uğradığını bir daha təsdiqlədi

Rüşvətxor imici ilə "şöhrət qazanmış" Avropa Parlamenti növbəti dəfə lokal və qeyri-hüquqi maraqların əsiri olduğunu "sübuta yetirdi". Azərbaycana münasibətdə hər zaman ikili standart müstəvisində yanaşma sərgiləyən qurum Ermənistana qarşı "cəlbetmə" kampaniyasını davam etdirmək xatirinə beynəlxalq hüququ tapdayır, ədaləti ikinci plana keçirir, həqiqəti danır. Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin son bəyanatına diqqət yetirən zaman bu faktorlar açıq şəkildə üzə çıxır.

**30 il susan AP-nin "dili" niyə açıldı?**

İlk olaraq vurğulanmalıdır ki, bu "bəyanatın" Xocalı faciəsi ildönümü ərəfəsində qəbul edilməsi Avropa Parlamentinin əsl simasını üzə çıxarır - bir daha bəlli olur ki, bu beynəlxalq təşkilat heç də hüquqi missiya daşımır, tam əksinə, onlar lokal maraqlar çərçivəsində öz mənafeləri üçün işğalçılara, cinayətkarlara və hətta separatçılara belə haqq qazandırmağa cəhd göstərir.

Belə olmasaydı, 30 ilə yaxın işğal altında qalan Azərbaycan torpaqları haqda bəyanatlar verməyən, öz doğma yurd-yuvalarından didərgin salınmış azərbaycanlıların hüquqlarının müdafiəsi ilə bağlı səsini çıxarmayan Avropa İttifaqı bu gün Ermənistan üzərindən manipulyasiya apararaq, özünü canıyanan göstərməzdi. Sözügedən sənəddə yer alan məsələlərdən biri Qarabağdan könüllü şəkildə Ermənistana gedən ermənilərlə bağlıdır ki, burada da ikili standart özünü açıq şəkildə göstərir. Hətta Ermənistanın özünün belə "qaçqın" adlandırmadığı bu şəxslər üzərindən Avropanın oyun qurmaq istəyinin arxasında fərqli maraqlar yatır - bu səbəbdəndir ki, Avropa İttifaqı kimi bölgədə sülhün formalaşmasına mane olmağa çalışan qurumlar və ya dövlətlər bu kimi hallar üzərindən spekulyasiyalara yol verirlər. Qarabağdan öz xoşu ilə Ermənistana köçən ermənilərin "hüquqlarını qorumağa" çalışanlar niyə Ermənistandan vəhşicəsinə qovulan 300 mindən artıq azərbaycanlının səsini eşitmir? Demək ki, məsələ yalnız yeni reallıqlardan doğan narahatlıqlar və sülh nəticəsində bölgədə formalaşacaq yeni situasiyadan qorxudur.



**Yalançı irs üzərindən təzyiq cəhdi...**

Ermənilərin formalaşdırdığı "yalançı irs" nağılı üzərindən Azərbaycana təzyiq göstərməyə çalışan Avropa Parlamenti əsl reallığı hər kəsdən yaxşı görür və bilir. Birinci Qarabağ müharibəsi dövründə baş verən işğal və azərbaycanlılara qarşı törədilən qanlı qətliamlar, dağıdılmış yüzlərlə kənd və şəhər, talan edilmiş tarixi-mədəni abidələr bütün fakt və sübutlarla ortadadır. Bu reallığı, faktoloji sübutlara əsaslanan hadisələri, itkin düşmüş 4 minə yaxın azərbaycanlı faktını bir kənara qoyan Avropa Parlamenti hansı dəyərlərdən danışır? Və ya hansı haqla Azərbaycana qarşı iddialar irəli sürür?

Bəli, AP-nin mahiyyəti dəyişməyən, heç bir hüquqi qüvvəyə malik olmayan bu kimi "bəyanatları" sırasına yenisini əlavə etməsi təəccüblü görünməməlidir. Aİ regionun real mənzərəsinə təsir imkanlarının tam şəkildə itirildiyi bir zamanda bu kimi "sənədlər" ilə Ermənistanı şirnikləndirib "özünə tərəf" çəkməyə çalışır. Onlar dərk edirlər ki, Azərbaycan son dövrlərdə atdığı addımlarla yerləşdiyimiz regionun beynəlxalq əhəmiyyətini artırır. Eyni zamanda, bölgədəki stabil durum cəlbediciliyi ilə göz oxşayır. Bütün bunlar isə Avropadakı erməni lobbisinin və erməniпərəst dairələrin maraqları ilə uzlaşmır. Çünki bölgədə yaranacaq yeni balans Azərbaycanın qaydalarına əsasən nizamlanacaq - ən real oyunçu kimi iqtisadi əlaqələrin formatını Azərbaycan təyin edəcək.

**Avropanın qeyri-qanuni çağırışı...**

"Bəyanatda" diqqəti cəlb edən məsələlərdən biri də Azərbaycanın ədalət məhkəməsi qarşısında törətdikləri əməllərin qarşılığında cavab verən bəzi şəxslərin "müdafiəsi" ilə bağlı nüanslardır. Həmin şəxslərin azad edilməsinə yönəlik çağırış Avropanın bəyan etdiyi hüquqi dəyərlərin aşağılanmasıdır. Bu bir daha onu təsdiqləyir ki, Aİ özünə lazım olan anda həm separatizmi "kölgəsinin" altına alır, həm müharibə cinayətlərinə və cinayətkarlarına haqq qazandırır, həm də beynəlxalq hüququ gözardı edir. Konkret cinayətlərdə şübhəli bilinən və məsuliyyətə cəlb edilən bu şəxslər haqqında ədalətli məhkəmə prosesi aparılır. Onlar vəkillərlə təmin ediliblər, hətta onların öz ailələri ilə əlaqə saxlamaq hüququ belə tanınır. Avropa isə onlara azadlıq tələb edir - görəsən, Avropanın özündə niyə belə cinayətlərdə günahlandırılan şəxslər azad edilmirlər.

Azərbaycan dövləti hər zaman bəyan edib və göstərib ki, bizim iradəmizə kimsə təsir göstərə bilməz. Yürütdüyü dövlət siyasətində hər zaman humanizmi əsas prioritet kimi məyyənləşdirən Azərbaycanda qanunun aliliyinin təmin edilməsi bütün halların fövqündədir - Azərbaycan hüquqi dövlət olaraq öz sərhədləri daxilində fərqli cinayətlərdə ittiham olunan şəxslərin qanun qarşısında mühakiməsinə nail olub. Hər zaman ədaləti və beynəlxalq hüququ dəstəkləyən və bütün addımlarında bu kimi bəşəri dəyərlərə istinad edən ölkəmiz üçün ittiham olunan şəxslərin kimliyi, adı, soyadı və ya milli mənsubiyyəti fərq etmir - bizim üçün qanunlar çərçivəsində aparılan mühakimə əsasdır. Aİ-nin çağırışı isə Azərbaycan üçün heç bir təsir yarada bilməz - Azərbaycanın davranışları yalnız və yalnız milli maraqlara əsaslanır...

**Azərbaycan ictimaiyyəti etiraz edir...**

Qeyd edək ki, Ermənistanı sülhdən yayındırmaq, onun militaristləşməsini davamlı etmək məqsədi daşıyan bu bəyanat Azərbaycan ictimaiyyətinin etirazı ilə qarşılanıb. Azərbaycan Milli Məclisinin Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin bəyanatına münasibətində bildirilib ki, bu sənəd Avropa Parlamenti ilə Ermənistanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsidir. Qeyd olunub ki, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində qəbul edilmiş bu bəyanat Azərbaycan əleyhinə səsləndirilmiş absurd və tamamilə əsassız ittihamlar həm Ermənistanın, həm də Avropa Parlamentinin əsl mahiyyətini bir daha ortaya qoyur. Vurğulanıb ki, bəyanat Ermənistan tərəfinin Azərbaycanla danışıqlar prosesində qeyri-səmimiliyini yenidən nümayiş etdirmiş oldu. Ermənistan parlamentinin, o cümlədən Komitənin işində iştirak edən hakim partiyanın nümayəndələrinin Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınması, habelə dövlətlərarası münasibətlərin normallaşdırılması ilə bağlı çıxışlarına birbaşa zidd olan birgə bəyanatı dəstəkləməsi bunun bariz göstəricisidir.

Qərbi Azərbaycan İcması (QAİ) da məsələ ilə bağlı yaydığı bəyanatında bildirib ki, Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlıq Komitəsinin fevralın 25-də keçirilmiş iclasında qəbul edilmiş yekun sənədi qınayır və tamamilə rədd edir. Bəyanatda vurğulanır ki, Avropa Parlamenti və Ermənistan parlamenti tərəfindən qəbul edilmiş sənəd irqçilik, insan hüquqlarına hörmətsizlik, Azərbaycanın ərazi bütövlüyünə qəsd xarakteri daşıyır və regionda yeni müharibənin yaradılmasına xidmət edir. Eyni zamanda, Militarist məqsədlərə xidmət edən "Avropa Sülh Fondu" və Avropa İttifaqının Ermənistandakı missiyasına (EUMA) sənəddə edilən çoxsaylı istinadlar Avropa İttifaqının Ermənistanın hərbiləşdirilməsinin bundan sonra da davam etdirəcəyinin göstəricisidir. QAİ beynəlxalq ictimaiyyəti Ermənistanın və Avropa İttifaqının sülhə mane olan bu addımlarına qarşı çıxmağa çağırıb.

***P.İSMAYILOV***

# Ekosid fəaliyyətinə son!

**Cənubi Qafqaz coğrafiyasında onilliklər ərzində əməkdaşlığa və təhlükəsizliyə ciddi təhdidlər yaradan Ermənistanın pozuculuq fəaliyyətlərindən biri də bu ölkənin davamlı olaraq ətraf mühitə vurduğu ziyandır ki, bu da həm dövlətlər, həm də cəmiyyətlər səviyyəsində ciddi narahatlıq doğurur. "Environmental Protection First" (EPF) Koalisiyası tərəfindən Cənubi Qafqazın və Xəzər dənizinin ekologiyasını zəhərləyən Ermənistanın dağ-mədən sənayesi müəssisələri barədə interaktiv rəqəmsal xəritənin bu günlərdə ictimaiyyətə təqdim edilməsi də bu narahatçılığın ifadəsidir. İnfobank mahiyyətli rəqəmsal xəritə Azərbaycan, ingilis və erməni dillərində hazırlanıb.**

## Peşəkar komanda tərəfindən hazırlanan unikal resurs

Ermənistan bir qayda olaraq dağ-mədən müəssisələrinin fəaliyyəti barədə geniş məlumatları ictimaiyyətə təqdim etmir. Bununla da şəffaflıq pozulur. Ermənistan hökumətini belə davranmağa sövq edən amillər çoxdur. Bu ölkədə dağ-mədən sənayesində əldə olunan gəlirlərin korrupsiya yeminə çevrildiyinə dair tez-tez müzakirələr açılır və hesabat istənilir. Eyni zamanda, Ermənistanın müvafiq qurumları sözügedən istehsalatların ətraf mühitə vurduğu ziyanı da hər vəclə gizlətməyə çalışırlar.

Təqdim olunan interaktiv rəqəmsal xəritə Ermənistanın ekoloji cinayətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından çox önəmlidir. Bu unikal resurs peşəkar komandanın bir ildən çox vaxt ərzində çəkdiyi gərgin əməyin məhsuludur. Yeri gəlmişkən, "Environmental Protection First" Koalisiyası 2024-cü ildə Azərbaycan, ingilis və erməni dillərində "Ermənistan Respublikasının mineral xammal resursları" adlı xəritə də hazırlayıb. İndiki Coğrafi İnformasiya Sistemləri (CİS) proqramlarına əsaslanan rəqəmsal xəritə də həmin xəritənin bazasında ərsəyə gətirilib. Lakin rəqəmsal xəritə hazırlanarkən yeni faktlar toplanıb və materiallar xeyli zənginləşdirilib. Təqdimat zamanı rəqəmsal xəritəni tərtib edən Koalisiyaya üzv olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov bildirib ki, interaktiv xəritədə faydalı qazıntıların növləri, yerləşdiyi ərazilər, əsas çirkləndirici müəssisələr, onların hansı maddələrlə hansı çayları çirkləndirməsi barədə məlumatlar təqdim olunur. "Ermənistanda dövlət qurumları bu barədə susmağa üstünlük verir, amma biz xəritələri həm də erməni dilində hazırlayırıq ki, yerli ictimaiyyət ondan gizlədilən ekoloji cinayətlərdən agah olsun. Peşəkar kartoqrafik əsər olan xəritə müasir "WGS-84" koordinat sistemində yığılıb, klikləmə üsulu ilə obyektlər haqqında ətraflı məlumat almaq mümkündür. Xəritənin altlığı həm topoqrafik, həm də kosmik görüntülüdür. İstehsal müəssisələri haqqında məlumatlar kosmik təsvirlərin analizi nəticəsində alınıb. Xəritədə xammal emalı müəssisələrinin, istismar edən şirkətlərin adları, müəssisələrin təyinatı, ətraf mühitə təsirləri haqqında məlumatlar, foto və videolar verilib", - deyə M.Bayramov vurğulayıb.



## Bütün bölgənin zəhərlənməsinin qarşısı alınmalıdır

Azərbaycan ictimaiyyətinin Ermənistanın ətraf mühitə ziyan vurmasından narahatlıq keçirməsi başadüşüləndir. Ermənistanın ekoloji normaları kobud şəkildə pozaraq istismar etdiyi dağ-mədən yataqlarının böyük əksəriyyəti sərhədlərimizə yaxın ərazilərdə yerləşir. Yataqların işlənmsi zamanı istehsalatdan çıxan çirkli sular transsərhəd çaylarına axıdılır. Beləliklə də, Ermənistanın müxtəlif sənaye fəaliyyətləri zamanı ətraf mühitə vurduğu ziyandan Azərbaycan da təsirlənir. İndiyədək respublikamız bu məsələ ilə bağlı dəfələrlə həyəcan təbili çalsa da, Ermənistan tərəfi beynəlxalq konvensiyaların tələblərini pozmaqda davam edir.

"Environmental Protection First" Koalisiyasının həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında İctimai Şuranın sədri Amin Məmmədov qeyd edib ki, Ermənistanın və bu ölkədə işləyən xarici şirkətlərin dünyada qəbul olunmuş ekoloji norma və standartlar gözlənilmədən apardıqları ekosid fəaliyyəti dərhal dayandırılmalıdır, Ermənistanın bütün bölgəni zəhərləməsinin qarşısı alınmalıdır. Ermənistan əhalisi və region ölkələrinin ictimaiyyəti onlardan gizlədilənlər barədə mütləq xəbər tutmalıdır. A.Məmmədovun sözlərinə görə, Azərbaycan QHT-lərinin Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına qarşı açdığı cəbhə dünyanın ən müxtəlif ölkələrindəki ekoloji təşkilatlar tərəfindən alqışlanıb.

Təqdimatda "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü, deputat Pərvanə Vəliyeva bəyan edib ki, Ermənistan özünün dağ-mədən müəssisələrində beynəlxalq qurumlarla, xarici QHT-lərlə birgə ekoloji monitorinqlər keçirmək üçün Azərbaycan QHT-lərinə şərait yaratmalıdır. Fikirlərinə davam edən P.Vəliyeva deyib: "Ermənistanın baş naziri Nikol Paşinyan bu mövzuda Azərbaycan ictimaiyyətinin, dünyanın onlarla ölkəsindən olan vətəndaş cəmiyyəti təmsilçilərinin ona ünvanlanan müraciətlərini 2 ilə yaxındır ki, cavabsız qoyub. Hələ də Ermənistanın dağ-mədən müəssisələri Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Sənədlərini gizlədir, ictimailəşdirməkdən imtina edir".

*Mübariz FEYİZLİ*

# Universitetlərdə yeni təhsil proqramları hazırlanır

## İlk iclas keçirildi...

Fevralın 25-də Elm və Təhsil Nazirliyində ali təhsil üzrə yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılan Komissiyanın ilk iclası keçirilib.

Qeyd edilir ki, Komissiyanın tərkibində bir çox ixtisas qrupu var. Təhsil ixtisasları qrupu, Humanitar və sosial ixtisaslar qrupu, Mədəniyyət ixtisasları qrupu, İqtisadiyyat və idarəetmə ixtisasları qrupu, Təbiət ixtisasları qrupu, Texniki və texnoloji və Xüsusi təyinatlı ixtisaslar qrupları, Kənd təsərrüfatı ixtisasları qrupu, İdman və xidmət ixtisasları qrupu, Əsas (baza ali) tibb təhsili səviyyəsi və səhiyyə ixtisasları qrupu olmaqla 9 İşçi qrupu yaradılıb. İşçi qruplarına rəhbərlik ali təhsil müəssisəsinin rəhbəri və əmək bazarından nümayəndə olmaqla həmsədrlik mexanizmi əsasında təşkil edilib.

İclasda çıxış edən elm və təhsil nazirinin müavini, Komissiyanın sədri İdris İsayev bildirib ki, nazir Emin Əmrullayevin əmri ilə yaradılan Komissiyada əmək bazarının üzvləri də təmsil olunurlar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır**

### Daha çox dəyişiklik magistratura üzrə aparılıb

Nazir müavini qeyd edib ki, əmək bazarının tələbləri dəyişdiyi üçün bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrinin ixtisas təsnifatlarında dəyişikliklərin edilməsi və ali təhsil pilləsinin səviyyələri üzrə ixtisasların uyğunluğunun təmin edilməsi vacib idi. Bu səbəbdən ötən il Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarı ilə ixtisas təsnifatları yenilənib.

İdris İsayev əlavə edib ki, təsnifatda bakalavriat səviyyəsi üzrə 153, magistratura üzrə 129 ixtisas öz əksini tapıb. Daha çox dəyişiklik magistratura səviyyəsi üzrə təsnifatda aparılıb. Nazir müavinin sözlərinə görə bütün bu dəyişikliklər yeni təhsil proqramlarının hazırlanması zərurəti yaradıb: "Təhsil proqramları əmək bazarının tələblərinə uyğun olmadığından onların yenidən hazırlanmasına ehtiyac var. Proqramlar işəgötürənlərin tələblərinə uyğun olmalıdır, ona görə işəgötürənlər də bu prosesdə aktiv iştirak etməlidirlər".

Nazir müavini deyib ki, təhsil proqramları çərçivə sənədləri əsasında hazırlanacaq: "Ola bilər ki, bir yox, bir neçə çərçivə sənədi olsun. "Top-10"-a daxil olan universitetlərin təhsil proqramları da nümunə olaraq komissiyaya təqdim ediləcək".

Daha sonra çıxış edən Elm və Təhsil Nazirliyinin



Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman bildirib ki, bu komissiyanın fəaliyyəti nəticəsində təhsil proqramının hazırlanmasında birbaşa əmək bazarının iştirakının təmin edilməsi, ixtisaslaşma üzrə təlim nəticələrinin müəyyən edilməsi, məzunların bilik və bacarıqlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması gözlənilir.

Turxan Süleyman qeyd edib ki, Komissiyanın İşçi qrupları ixtisas qruplarına daxil olan bütün ixtisaslar üzrə ixtisaslaşmaların yenilənmiş siyahısını hazırlayıb ETN-ə təqdim etməlidirlər.

### Yeni təhsil proqramı kadr islahatları üçün mühümdür

Mövzunu "Yeni Azərbaycan"a şərh edən Elçin Əfəndi bildirib ki, sözügedən iclasda əsasən ixtisasların təsnifatı, yeni yaradılacaq ixtisaslar, mövcud ixtisasların əmək bazarına uyğunluğu və müasir çağırışlara cavab verməsi diqqətə saxlanılıb: "Hazırkı dövrdə magistratura pilləsində mövcud olan ixtisaslar əmək bazarına uyğunluğu və təsnifatlaşdırılması üzərində işlər görülür. Bundan sonra isə bakalavr pilləsi üzrə işlərə baxılacaq. Ali təhsil proqramlarının yenidən hazırlanması tələbələrlə bağlı düzgün istiqamətdə kadr islahatlarının həyata keçirilməsi üçün mühümdür. Yeni təhsil proqramları həmçinin müəyyən sahibkarlıq və digər dövlət qurumlarında işəgötürənlərin tələbələrlə maraqlanması, onlara xüsusi diqqət göstərilməsi üçün rol oynayacaq. Bəzi hallarda görürük ki, kadr hazırlığı həyata keçirilir, amma həmin kadr işəgötürənin maraqlarına cavab vermir. Məhz ilk iclasda da xüsusilə bu kimi məqamlar üzrə müzakirələr aparılıb".

Eskpertin fikrincə, kadr hazırlığı zamanı işəgötürənlərin maraqları da diqqətə alınarsa, o zaman növbəti mərhələdə əmək bazarına daha əsaslı və bacarıqlı kadrlar hazırlayıb çıxara bilərik: "Bu həm bakalavr, həm də magistratura pilləsi üçün vacibdir.

### Tələbələr 3-cü kursdan təcrübə keçməlidir

Yaxşı olardı ki, tələbələrin təcrübə imkanlarına da baxılsın. Çünki tələbələr yalnız sonuncu kursda təcrübə keçirlər. Onlar belə təcrübələrlə nəsə əldə edə bilməzlər. Buna görə də ən azı 3-cü kursdan tələbələrin təcrübə imkanları yaradılmalıdır. Həmin təcrübə də müvafiq qurumlarda onların həm əmək fəaliyyətinin başlanması kimi qeydə alınmalıdır. Məsələn, həmin kadrlar harada təcrübə keçəcəklərsə, həmin müəssisədə qalaraq əmək fəaliyyətlərini davam etdirə bilərlər. Məhz yeni ali təhsil proqramlarının hazırlanmasında bu kimi məsələlər də diqqətə alınıb".

*Yeganə BAYRAMOVA*

# Yeni mexanizm...

## Azərbaycanda məişət zorakılığının qarşısının alınması üçün yeni monitorinq və əlaqələndirmə mexanizmi tətbiq edilir

Azərbaycanda məişət zorakılığının qarşısının alınması, zərərçəkən şəxslərin təhlükəsizliyinin təmin edilməsi və onların hüquqlarının bərpası sahəsində dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üzrə yeni mexanizm yaradılıb. Bu dəyişiklik "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna edilən düzəlişlər çərçivəsində həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Nazirlər Kabinetinin müvafiq qərarı əsasında Komitədə yaradılan "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu"nun ilk iclası ilə bağlı keçirilən brifinqdə bildirib.

O diqqətə çatdırıb ki, Nazirlər Kabinetinin 2024-cü ildə qəbul edilmiş qərarı ilə "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası" təsdiq edilib. Bu çərçivədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində və bütün yerli icra hakimiyyəti orqanlarında tərkibi ən azı 9 nəfərdən ibarət monitorinq və əlaqələndirmə qrupları yaradılıb.

"Yeni mexanizm məişət zorakılığı ilə mübarizədə dövlət qu-



rumlarının koordinasiyasını gücləndirməklə yanaşı, cavab tədbirlərinin effektiv monitorinqini həyata keçirməyə imkan verəcək. Bu addım məişət zorakılığı ilə mübarizə sahəsində hüquqi və institusional bazanın təkmilləşdirilməsi istiqamətində mühüm yenilik hesab edilir", - deyə Bahar Muradova əlavə edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, məişət zorakılığı ilə mübarizədə dövlət qurumlarının və ictimai təşkilatların birgə fəaliyyəti vacibdir: "Bu sahədə ailə, qadın və uşaq siyasəti çərçivəsində aparılan təhlillər və görülən tədbirlər sistemli yanaşma tələb edir. Monitorinq və Əlaqələndirmə Qrupunun yaradılması isə bu istiqamətdə koordinasiyanı gücləndirməyə və daha effektiv tədbirlərin həyata keçirilməsinə imkan verəcək".

Komitə rəsmisi vurğulayıb ki, hər bir dövlət qurumu məişət zorakılığı ilə mübarizədə üzərinə düşən vəzifələri yerinə yetirməlidir: "Monitorinq qrupunun fəaliyyəti yalnız iclaslarda iştirakla məhdudlaşmır, eyni zamanda, müvafiq sahələr üzrə konkret tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu çərçivədə Səhiyyə Nazirliyinin də xüsusi rolu var. Çünki məişət zorakılığına məruz qalan şəxslər, xüsusilə də qadınlar və uşaqlar müxtəlif xəstəxanalara müraciət edir. Həmin halların qeydiyyata alınması, zərərçəkənlərə psixoloji və tibbi yardımların göstərilməsi, eləcə də onların sosial reabilitasiyasına dəstək verilməsi səhiyyə sisteminin imkanları daxilində vacib məsələlərdən biridir".

"Məişət zorakılığına qarşı mübarizə kompleks yanaşma tələb edir və bu sahədə aidiyyəti qurumların sıx əməkdaşlığı zəruridir. Gələcəkdə monitorinq qrupunun fəaliyyətinin daha da gücləndirilməsi və geniş miqyasda maarifləndirmə tədbirlərinin aparılması nəzərdə tutulur", - deyə Sədaqət Qəhrəmanova əlavə edib.

# Yeni inflyasiya gözləntiləri

**“S&P Global” (S&P) beynəlxalq reytinq agentliyi 2025-ci ildə Azərbaycanda orta illik inflyasiyanın 4 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Təşkilatın dünya ölkələrində qiymət indeksi ilə bağlı yeni hesabat sənədində qlobal inflyasiya göstəricisinin cüzi artacağına dair ehtimallar əksini tapıb. “S&P”nin proqnozlarına görə, ölkəmizdə inflyasiya cari ilin sonunda azalmağa doğru istiqamətlənəcək, 2026-cı ildə isə bu rəqəm 3 faizə düşəcək.**

**Digər beynəlxalq maliyyə institutlarının gözləntiləri də təxminən eynidir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanla bağlı inflyasiya gözləntiləri cari il üzrə 3,6 faiz, 2026-cı il üzrə isə 3,1 faizə bərabərdir. Niderlandın “ING Group”unun apardığı qiymətləndirmədə isə ölkəmizdə istehlak qiymətlərinin 2025-ci ildə 4,8 faiz, 2026-cı ildə isə 4,7 faiz olacağına dair ehtimallar yer alıb. İqtisadiyyat Nazirliyinin proqnozlarında isə ölkəmizdə illik inflyasiyanı 2025-ci ildə 4,6 faiz, 2026-cı ildə 4 faiz səviyyəsində olacağı fərz edilir.**



## Dünyada baş verən geosiyasi və iqtisadi proseslər qiymətlərə təsir edir

İnflyasiya proqnozları ilə bağlı fərz edilən dəhliz bir sıra xarici və daxili inflyasiya amillərinin dəyişməsindən asılı olaraq formalaşır. Burada əsas amillər kimi manatın nominal effektiv məzənnəsi, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin tarifləri rol oynayır. Qiymət indeksində başlıca risk balansı isə tərəfdaş ölkələrdə inflyasiyanın və dünya bazarında əmtəə qiymətlərinin dəyişkənliyindən asılıdır. Aparıcı iqtisadiyyatlarda monetar şəraitin sərt olaraq qalması qlobal inflyasiyanı azaldacaq amillərdən biridir. İnflyasiyanı artıra biləcək başlıca daxili risk isə yerli xərc amilləri, eləcə də məcmu tələbin izafi artımı ilə əlaqədardır. Bu səbəbdən ortamüddətli dövrdə büdcə xərclərinin genişlənməsi və kredit aktivliyinin artması inflyasiyaya təsirlərini artıra bilər. Eyni zamanda, iqlim dəyişiklikləri və istehsal xərclərinin artımı kənd təsərrüfatı istehsal qiymətləri indeksi vasitəsilə inflyasiyaya təsir edə bilər.

İnflyasiya gözləntiləri sırasında xidmət sektorundakı qiymət dalğalanmaları da təsiredici rol oynayır. Real sektorun monitorinqinin nəticələrinə əsasən, cari ilin ötən dövrü ərzində sahələr üzrə ən yüksək qiymət artımı gözləntisi də məhz xidmət sektorunda qeydə alınıb. Ona görə də, növbəti aylarda xidmət sferasının tarazlıq əmsalı qiymət indeksində yenə də təsiredici funksiyasını davam etdirə bilər. Digər sektorlardan tikinti və ticarət üzrə gözləntilər də son 2 ayda mənfi zonada qalmaqda davam edib. Qeyri-neft sənaye sektorunda il ərzində dəyişkənlik müşahidə edilib və gözləntilərdə mənfi zonadan müsbət zonaya keçid yer alıb.

İnflyasiya portfelində ən fundamental amillərdən biri olan xarici mühitin təsiri də qalmaqdadır. Belə ki, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin qeyri-ahəngdarlığı, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda dövr etməsi yenə də müşayiət edilir. Rusiya-Ukrayna müharibəsinin yaratdığı şoklar, yaxın Şərqdə baş verən münaqişələr çox güman ki, hələ bir müddət davam edəcək, nəticədə bu hallar qlobal bazarlara mənfi təsirlərini göstərəcək və qiymət dalğalanmaları gözləniləndir.

## Zəruri nəzarət alətləri davam etdiriləcək

Bütün bu amilləri ümumi təsnifləşdirdikdə, 2025-ci ildə daxili və xarici bazarlarda baş verəcək dəyişikliklərdən asılı olaraq istehlak qiymətləri dəhlizinin formalaşacağı istisna deyil. Bu baxımdan inflyasiyanın azalacağına arxayın olub prosesi nəzarətsiz buraxmaq qeyri-mümkündür. Mərkəzi Bank öz mandatına uyğun olaraq zəruri nəzarət alətlərini davam etdirəcək. Nazirlər Kabinetinin 15 iyul 2023-cü il tarixli sərəncamı 2025-ci ildə də əsas yol xəritəsi kimi diqqətdə saxlanılacaq. Həmin sənədə əsasən, ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyədə saxlanılması və bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi tədbirləri növbəti il üçün də aktualdır. Nəzərə alsaq ki, gələn il büdcə xərclərinin irihəcmli artımları da nəzərdə tutulub və bu, inflyasiya təzyiqlərini yüksəldə bilər. Ona görə də hökumət bu riskləri də nəzərə alaraq xərclərdə maksimum ehtiyatlı davranaraq izafi xərclər və pul kütləsi yaranmasının qarşısını almağa çalışacaq. Xüsusilə də monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi istiqamətində görülmüş səmərəverici tədbirlər yenə də əsas çağırış kimi iqtisadi blokun masasında qalacaq.

*E.CƏFƏRLİ*

# İstanbulda tarixi görüş

## 6 saat yarımlıq müzakirənin pərdə arxası...



**Xəbər verildiyi kimi, Rusiya və ABŞ nümayəndələri arasında İstanbulda növbəti görüş keçirilib. Əsasən ikitərəfli əlaqələrə, xüsusilə də səfirliklərin fəaliyyəti ilə bağlı məsələlərə həsr olunan müzakirənin aparılması ilə bağlı razılıq daha əvvəl Səudiyyə Ərəbistanında aparılan danışıqlar zamanı əldə olunub. ABŞ Dövlət Departamenti söhbəti məhsuldar adlandırıb. Xatırladaq ki, hələ fevralın 18-də Ər-Riyadda Rusiya və ABŞ nümayəndə heyətlərinin uzun müddətdən sonra ilk yüksək səviyyəli görüşündən əvvəl Dövlət katibi Marko Rubio bəyan etmişdi ki, Moskva və Vaşinqtondakı səfirliklərin işi ilə bağlı ikitərəfli məsələlərin həlli zəruridir. Onun sözlərinə görə, qurulacaq rabitə, əlaqələndirmə Ukrayna nizamlanmasının müzakirəsinə kömək edəcək. Bu mənada, Səudiyyə Ərəbistanında keçirilən görüşdə tərəflər tez bir zamanda səfirlərin təyin edilməsi və diplomatik missiyaların fəaliyyətinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı məsləhətləşmələrə başlamaq barədə razılığa gəlmişdilər.**

## Rusiya ilə ABŞ razılığa gəlir - növbəti görüşün anonsu verildi

### Nələr danışıldı?

Görüşdən öncə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da Rusiya və ABŞ nümayəndə heyətlərinin İstanbulda aparacaqları danışıqların xüsusi olaraq səfirliklərin normal fəaliyyətinə qaytarılması məsələsinə həsr olunacağını bildirmişdi. Vurğulanırdı ki, masada başqa müzakirə predmeti planı yoxdur. Düzdür, nümayəndə heyətlərinin tərkibi açıqlanmasa da, görüşə yüksəksəviyyəli diplomatların və ekspertlərin qatıldığını demək mümkündür. Qeyd edək ki, 6 saat yarım çəkən görüş ABŞ-ın İstanbuldakı baş konsulunun iqamətgahında təşkil olunub və mətbuata qapalı formatda baş tutub.

Kreml danışıqlardan sonra müəyyən məlumatın veriləcəyini bildirsə də, iclas başa çatdıqdan sonra onun iştirakçıları heç bir şərh vermədən iqamətgahı tərk ediblər. Daha sonra ABŞ Dövlət Departamenti müzakirənin konstruktiv keçdiyi ilə bağlı açıqlama yayıb. Bildirilib ki, ikitərəfli missiyaların formalaşdırılması ilə bağlı konkret ilkin addımlar müəyyənləşdirilib. Bank və müqavilə xidmətlərinə çıxış, o cümlədən Moskvadakı səfirlikdə kadr təminatının dayanıqlı səviyyəsinin təmin edilməsi məsələləri qaldırılıb. Departament qeyd edib ki, nümayəndə heyətlərinə ABŞ dövlət katibinin Rusiya və Mərkəzi Avropa üzrə köməkçisinin müavini Sonata Kulter və Rusiya Xarici İşlər Nazirliyinin Şimali Atlantika Departamentinin direktoru Aleksandr Darçiyev rəhbərlik edib. Onlar hələlik tarixi və yeri müəyyən edilməmiş növbəti görüşün keçirilməsi barədə razılığa gəliblər.



### Konsulluqlar bağlanıb, missiya minimal səviyyəyə endirilib...

Qeyd edək ki, hər iki ölkənin diplomatik nümayəndəlikləri məhdud səviyyədə fəaliyyət göstərir - hər iki diplomatik nümayəndəliyin heyətinin əksəriyyəti ixtisar edilib, bir sıra konsulluqlar bağlanıb. Hələ 2016-cı ildə ABŞ-da baş tutan seçkilərə müdaxilə ittihamları fonunda Obama administrasiyası Rusiyanın altı fəxri konsulundan beşinin akkreditasiyasını ləğv etmiş, daha sonra isə 35 diplomatı ölkədən çıxarmışdı. 2017-ci ildə sanksiyaların növbəti dəfə sərtləşdirilməsindən sonra 755 amerikalı diplomat Moskvanı tərk etdi. Beləliklə, ABŞ-ın Rusiyadakı missiyasının üzvlərinin sayı 455 nəfərə endirildi. Sonradan ABŞ tələblərini sərtləşdirdi və rus diplomatlarını ölkədən çıxarmağa davam etdi və bu, Rusiya tərəfinin “güzgü prinsipi” ilə qarşılandı. Amerikanın Sankt-Peterburq, Yekaterinburq və Vladivostokdakı, həmçinin Rusiyanın Sietldəki konsulluqları bağlandı. Səfirliklərdən başqa, yalnız Rusiyanın Nyu-York və Hyustondakı baş konsulluqları fəaliyyətini davam etdirir. Rusiyanın ABŞ-dakı səfiri isə 2024-cü ilin oktyabrına qədər rəsmi olaraq təyin edilməmişdi - postu hazırda Anatoli Antonov tutub.

2021-ci ilin avqust ayından Amerikanın Moskvadakı səfirliyinin əməkdaşlarının kvotası 120 nəfərə endirildi. Bununla əlaqədar olaraq, Birləşmiş Ştatlar diplomatik və təcili immiqrasiya vizaları istisna olmaqla, demək olar ki, bütün növ vizaların verilməsindən imtina edərək, müraciət edənlərin digər ölkələrdəki diplomatik nümayəndəliklərə müraciət etmələrini təklif edib. Hazırda müzakirə edilən məsələnin xüsusilə səfirliklərin normal fəaliyyətə qayıtmasına hesablanıb ki, bunun detalları da gələcək görüşlərdə tam müəyyənləşəcək.

### Türkiyə diqqət mərkəzində - iki xristian ölkəsi İslam paytaxtında danışır

Keçirilən görüşlərin siyasi nəticəsi isə bir sıra ekspertlər tərəfindən fərqli aspektlərdə dəyərləndirilir. Dünyanın aparıcı və fərqli qütblərdə yer alan qrandlarından ikisinin İstanbulda görüşüb müzakirə aparması Türkiyənin yeni dönəm üçün siyasi mahiyyətinə yeni rəng qatmaqla yanaşı, Ankaranın proseslərə təsirini də artıra bilər. Xüsusilə, Ər-Riyad görüşü zamanı prezident Zelenskinin Türkiyəyə səfəri və prezident Ərdoğanla səmimi görüşü onu deməyə əsas verir ki, Türkiyə məsələnin həllində açar rolunu öz üzərinə götürüb. Bu da təbiidir:

-Ankara NATO dövləti olaraq ABŞ-ın yaxın müttəfiqlərindən biridir;

- Türkiyə Rusiya ilə normal münasibətlə malikdir və hətta birgə bir neçə layihələrin həyata keçirilməsi planlaşdırılır;

-Nəhayət, Ukrayna Türkiyəyə güvənir - bu fakt dəfələrlə öz təsdiqini tapıb və Zelenskininin ən çətin anlarda Ankaraya üz tutması bunu bir daha sübut edir. XXI əsrin hələki ən böyük hərbi qarşıdurması sayılan Ukrayna müharibəsinin yekunlaşmasına verəcəyi töhfə Ankara üçün mühüm üstünlüklər vəd edir. Bu bir çox aspektlərdə izah oluna bilər:

- Türkiyə özünün regional lider statusunu daha da inkişaf etdirəcək və ABŞ, Rusiya kimi dövlətlərin bir araya gəlməsinə vəsilə olan qüvvə kimi meydana çıxacaq;

- Türkiyə Avropa üçün “nicat yolu”na çevriləcək. O baxımdan ki, Rusiya-ABŞ razılaşması nəticəsində “offsayda” düşən Aİ çıxış yolunu Türkiyədən “mədəd ummaqda” görəcək. Bu isə Ankaranan Aİ-yə yolunu belə aça bilər;

- Türkiyə Yaxın və Orta Şərq məsələsində təsir arealını genişləndirəcək. Nəzərə alınmalıdır ki, Yaxın və Orta Şərq məsələsi Ankara üçün hər zaman mühüm əhəmiyyət təşkil edib və Ukraynadakı tənzimlənməyə veriləcək töhfənin qarşılığı da adıçəkilən regionda “verilə” bilər.

Hər bir halda, bu görüşün İstanbulda baş tutması mühüm bir çağırış, mühüm bir göstəricidir - ən azından dünyanın iki ən böyük xristian ölkəsi İslam dininin ən mühüm nöqtələrindən birində, İstanbulda görüşür...

*P.SADAYOĞLU*

# Öcalan PKK-ya çağırış etdi

## Silahı yerə qoyun!

## Türkiyə terrorsuz gələcəyə qədəm qoyur?

**Xəbər verildiyi kimi, bir neçə gün öncə Türkiyənin Ədliyyə Nazirliyi DEM Partiyasının deputatlarına PKK terror təşkilatının həbsdə olan lideri Abdullah Öcalanla görüşməsinə icazə verib. DEM Partiyasının millət vəkilləri Sırrı Süreyya Öndər və Pərvin Buldan, həmçinin Mardin Böyükşəhər Bələdiyyə Başçısı Əhməd Türk, DEM Partiyasının həmsədrləri Tülay Hatimoğulları və Tuncer Bakırhan, Öcalanın vəkili Faiq Özgürün təmsil olunduğu İmralı heyəti terror təşkilatının lideri Abdullah Öcalanla görüşüb. İmralıdan qayıtdıqdan sonra mətbuat konfransı keçirən heyət, Öcalanın yazılı mesajını açıqlayıb. TBMM sədrinin müavini Sırrı Süreyya Öndər Prezident Rəcəb Tayyib Ərdoğan, MHP sədri Dövlət Baxçalı və CHP sədri Özgür Özəl başda olmaqla prosesə töhfə verən siyasətçilərə təşəkkür edib. Öcalanın hazırladığı bir səhifəlik mətn oxunub. Mətndə bildirilir ki, PKK artıq silahı yerə qoymalıdır.**

### PKK-nın mart qurultayında...

Türkiyənin "Milliyyət" qəzetinin yazdığına görə, PKK-nın silahı yerə qoyacağı təqdirdə bu təşkilatın rəhbərliyi altında siyasət apardığı üçün daim tənqid edilən DEM Partiyası siyasi normallaşma prosesi yaşaya bilər. Məlumatlara görə, ilk mərhələdə PKK-nın mart ayında qurultay keçirəcəyi gözlənilir. DEM Partiyası heyətinin bu prosesdə PKK və onun Suriya, Qəndil və Avropadakı uzantıları ilə birbaşa təmasda olacağı və bu təmasların dövlətin müvafiq bölmələrinin nəzarəti altında reallaşacağı bildirilir. PKK silahı yerə qoyacağı təqdirdə DEM heyəti Şimali İraqda növbəti görüşlər keçirməyi planlaşdırır. Bu təmaslar zamanı PKK-çıların silahlarını yerə qoyması ilə bağlı prosesin necə idarə olunacağı məsələsinin də dəyərləndiriləcəyi bildirilir. Digər tərəfdən, mart ayında təşkilatın əlində olan dövlət məmurlarını da azad edəcəyi gözlənilir.



### YPG razıdır...

YPG qruplaşması PKK lideri Abdullah Öcalanın tərəfdarlarını silahı yerə qoymağa çağırmasını müsbət qarşılayıb. Məlumata görə, təşkilatın mətbuat xidmətinin nümayəndəsi Siyamend Eli bu çağırışın bölgədə sülhün bərqərar olmasına töhfə verəcəyini bildirib. Onun sözlərinə görə, Öcalanın mesajı münaqişənin dayandırılmasına yönəlib və bu, xüsusilə Türkiyə və region xalqları üçün mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, PKK-nın Suriya qolu sayılan Suriya Demokratik Qüvvələrinin (SDQ) rəhbəri Ferhat Abdi Şahin də prosesə konstruktiv yanaşdıqlarını vurğulayıb.

### Beynəlxalq mətbuatın manşetlərində...

Yeri gəlmişkən, PKK-nın silahı yerə qoyması ilə bağlı çağırış beynəlxalq ictimaiyyət tərəfindən də maraqla qarşılanıb. İngiltərənin "Guardian" qəzeti və ABŞ-ın "CNN" kanalı bununla bağlı xüsusi reportajlar verib. Qətərin Əl-Cəzirə telekanalı Öcalanın çağırışını "tarixi addım" adlandırıb. Bildirilib ki, bu çağırış Türkiyə ilə 40 illik münaqişəyə son qoya və bölgə üçün geniş siyasi və təhlükəsizlik nəticələri verə bilər.

"The New York Times" Öcalanın çağırışını "Kürd üsyançı PKK lideri Abdullah Öcalan döyüşçülərini silahlarını yerə qoymağa çağırır" başlığı ilə dərc edib. "Washington Post" isə Öcalanın çağırışının Şimali İraqda yerləşən yaraqlılar tərəfindən qəbul edilib-edilməyəcəyini sual altına qoyub. Almaniyanın "Die Welt" və "Bild" qəzetləri, AFP və AP, eləcə də İRNA xəbər agentlikləri, BBC də bu məsələyə xüsusi diqqət ayırıb.

### İndiyə qədər 8 dəfə...

Vurğulayaq ki, terror təşkilatı daha əvvəl 8 dəfə "atəşkəs" qərarı verib. Ancaq bütün hallarda qərara sadiqlik nümayiş etdirilməyib. PKK ilk dəfə 20 mart 1993-cü ildə atəşkəs elan edib. Ən mühüm atəşkəs qərarlarından biri 1999-cu il sentyabrın 1-də Öcalan İmralıda olarkən qəbul edilib. Öcalan terror təşkilatını "Türkiyə sərhədlərindən çıxmağa" çağırıb. Bu atəşkəs 2004-cü il iyunun 1-dək davam edib. 2009-cu ildə Osloda MİT ilə PKK arasında danışıqlar aparılıb. 2013-cü ildə Diyarbəkirdə keçirilən Novruz şənliyində oxunan məsajında Öcalan PKK-nın atəşkəs elan edəcəyini və Türkiyədən rəsmən çəkiləcəyini açıqlayıb. Proses 2015-ci ildə Ceylanpınar hücumu ilə sona çatıb.



Türkiyə Silahlı Qüvvələri İraqın şimalında terror təşkilatı PKK-ya qarşı silsilə əməliyyatlarını davam etdirir. Türkiyə Silahlı Qüvvələri aprel ayından etibarən Zap bölgəsində fəaliyyətini gücləndirməyi planlaşdırır. Qəndil kimi daxili bölgələrə qarşı hava əməliyyatları fasiləsiz davam edir. Suriyanın şimalında "Fərat Qalxanı", "Zeytun Budağı" və "Sülh bulağı" əməliyyatı bölgələrində, həmçinin Tişrin bəndi ətrafında İHA əməliyyatları davam edir. Mübarizənin PKK-YPG-nin silahı yerə qoyacağı günə qədər qətiyyətlə davam etdiriləcəyi bildirilir.

### AK Parti: Biz nəticəyə baxırıq...

Türkiyə mətbuatı hakim AK Partinin məsələyə münasibətini öyrənib. AK Parti Genel Başkan Vəkili Efkan Ala PKK terror təşkilatının həbsdə olan lideri Abdullah Öcalanın silahların yerə qoyulması və təşkilatın özünü buraxması ilə bağlı çağırışına münasibət bildirib. Efkan Ala çağırışın əhəmiyyətini vurğulayaraq, onun nəticələrinin önəmli olduğunu deyib: "Çağırışın mahiyyəti silahların yerə qoyulması və terror təşkilatının özünü ləğv etməsidir. Biz nəticəyə baxırıq. Bu nəticə reallaşacaqmı, bunu görəcəyik".

Ala Prezident Rəcəb Tayyib Ərdoğanın ilk gündən terrorla mübarizədə qətiyyətli siyasət apardığını xatırladıb: "AK Parti bütün bu proseslərdə ciddi təşəbbüslər irəli sürüb. Məqsədimiz terrorun olmadığı bir Türkiyə yaratmaqdır".

O, terror təşkilatının bu çağırışa uyğun addım atmasının vacibliyini vurğulayaraq bildirib ki, bu, terrorla mübarizədə əhəmiyyətli bir dönüş nöqtəsi ola bilər: "Terror təşkilatının bu çağırışı nəzərə alaraq özünü buraxması və silahları təhvil verməsi gözlənilir. Əks halda, Türkiyə terrorla mübarizəni eyni qətiyyətlə davam etdirəcək".

### ABŞ, Almaniya və İraq Kürdüstan Regionu açıqlama yaydı...

Məsələyə ayrı-ayrı dövlətlər də münasibət bildirib. ABŞ və Almaniya hökumətləri terror təşkilatı Öcalanın PKK-nın tərksilah edilməsi və özünü ləğv etməsi çağırışını alqışlayıb. Almaniya hökumətinin sözçüsü Hebestreyt, kansler Şoltzun yazılı açıqlamasını paylaşıb. Ağ Evin Milli Təhlükəsizlik Şurasının sözçüsü Brayan Hughes yazılı açıqlamasında çağırışı mühüm bir inkişaf adlandırıb. İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani də bu çağırışı müsbət qarşılayıb. Bərzani adına yayılan yazılı açıqlamada "Prosesi uğurlu etmək üçün hər cür rolu oynamağa hazırıq" deyə bildirilib.

*S.İSMAYILZADƏ*

# Arktika necə "bölünəcək"?

**Qlobal dünya yeni tarixi dövrə qədəm qoyur - artıq beynəlxalq münasibətlər "çoxqütblülük" sisteminə transformasiya olunur. Tarix boyu diqqət mərkəzində olan və bu günə qədər öz əhəmiyyətini itirməyən regionlar 20-ci əsrdə olduğu kimi yenidən bir neçə güc mərkəzinin təsir dairəsi altında olacaq. Sözsüz ki, bu proses Ukraynadakı problem həll olunduqdan sonra daha da sürətlənəcək. Geniş təsir rıçaqlarına malik olan böyük dövlətlər dünyanın bölüşdürülməsində maraqlıdırlar. Proses Arktikaya da təsirsiz ötüşməyəcək.**

### Arktikanın əhəmiyyəti

İstər Soyuq müharibə dövründə, istərsə də son otuz ildə Rusiya ilə ABŞ arasında Arktika regionu üzərində geostrateji, geosiyasi və geoiqtisadi rəqabət aparılıb. Hər iki güc mərkəzinin bu regionda yerüstü və sualtı ballistik raket bazaları var. Neftqaz ehtiyatları ilə zəngin və potensial marşrut olan bu region digər beynəlxalq güc mərkəzlərinin də diqqətindən yayınmayıb.

Arktikada ABŞ və Rusiyanın maraqlarının həm toqquşduğu, həm də uzlaşdığı dövrlər də olub. Yaxın zamanda ABŞ-Rusiya münasibətlərinin normallaşması fonunda regiondakı vəziyyət yenidən nəzərdən keçiriləcək - Rusiya İnvestisiya Fondunun rəhbəri Kiril Dmitriyev KİV-lərə açıqlamasında qeyd edib ki, bu yaxınlarda Ər-Riyadda keçirilmiş ABŞ-Rusiya danışıqlarında Arktika da müzakirə predmenti olub. Onun sözlərinə görə, hər iki tərəf Arktikada neft-qaz ehtiyatlarının istismar olunması, mühüm enerji layihələrinin həyata keçirilməsi və gələcək nəqliyyat marşrutunun müəyyən olunması ətrafında geniş fikir mübadiləsi aparıblar. Bir sıra ekspertlər hesab edirlər ki, Arktikada ortaq geosiyasi və geoiqtisadi maraqların bölüşdürülməsi ABŞ ilə Rusiya arasında uçurumu aradan qaldıracaq və hər iki güc mərkəzini bir-birinə daha da yaxınlaşdıracaq.

Xüsusilə qeyd edək ki, martın 26-27-də Rusiyanın Murmansk şəhərində "Altıncı Beynəlxalq Arktika Dialoq Forum" keçiriləcək - tədbirdə region dövlətləri və beynəlxalq təşkilatların rəsmiləri, müxtəlif elm və analitik mərkəzlərinin tədqiqatçıları iştirak edəcək. Rus KİV-ləri qeyd edir ki, bu tədbirdə Arktikada iqlim dəyişikliklərinin fəsadları, o cümlədən regionla bağlı siyasi, iqtisadi və enerji məsələləri müzakirə olunacaq.



### Qrenlandiya amili

Dünyanın ən böyük adası, istismar olunmayan enerji resursları ilə zəngin və logistik marşrut potensialına malik olan Qrenlandiya hər zaman ABŞ-ın Avropa və Atlantika strategiyasında prioritet təşkil edib. İkinci Dünya müharibəsindən başlayaraq bu günə qədər adada ABŞ-ın hərbi bazaları fəaliyyət göstərir. Vaşinqton bir növ bu ada üzərindən öz təhlükəsizliyini təmin edir. Bu gün Qrenlandiya daha aktual beynəlxalq gündəm mövzusuna çevrilib.

Trampın Ağ Evə qayıtdığından sonra Kanada və Qrenlandiya ilə bağlı çıxışları - hər iki regionu ABŞ-a birləşdirmək niyyətini açıq şəkildə büruzə verməsi Qərb yarımkürəsində çox ciddi narahatlıq yaradıb. Hətta Qrenlandiyanı ilhaq etmək üçün hərbi gücə əl atmağa hazır olmasını istisna etməməsi Avropa ölkələrini ciddi təşviş salıb.

Ekspertlərin fikrincə, Qrenlandiya Tramp üçün üç amilə görə prioritetdir - ABŞ-ı xarici təhlükələrdən qorumaq, yaxın gələcəkdə adadakı neft-qaz və mineral ehtiyatları istismar etmək, eyni zamanda, şimalda buzlaqların əriyəcəyi təqdirdə ada üzərindən Şimali Amerikanı Arktika ilə birləşdirən yeni beynəlxalq nəqliyyat-kommunikasiya xəttini çəkmək Ağ Ev rəhbərinin strateji hədəfləridir.

Dünyanın nüfuzlu "CASTO" analitik mərkəzinin bu yaxınlarda dərc olunan məqaləsində qeyd olunur ki, Arktikada buzların əriməsi Qrenlandiyanı geosiyasi mükafata çevirir, ABŞ-ın Pituffik Kosmik Stansiyası və ballistik raketləri üçün çox önəmlidir. "CASTO" onu da bildirib ki, ABŞ investisiyalar və birbaşa yardım vasitəsilə, həmçinin geosiyasi və geoiqtisadi təzyiqlər tətbiq etməklə Qrenlandiyanı Danimarkadan təcrid edə bilər: "Arktikada strateji resurslar, gəmiçilik marşrutları və hərbi mövqe üzərində rəqabət fövqəldövlətləri beynəlxalq normalara meydan oxumağa sövq edir və regionu getdikcə daha çox mübahisəli geosiyasi arenaya çevirir," - deyə mərkəzin məqaləsində qeyd olunur.

Yaxın dövrdə Qrenlandiya ətrafında ciddi proseslərin baş verməsi mümkündür, amma Tramp administrasiyası Danimarka, həmçinin Avropa İttifaqı ilə diplomatik danışıqlar masasında da öz hədəflərinə nail ola bilər. Vaşinqtonun təsir rıçaqları çox güclüdür və təklifləri cəlbedicidir.

### Arktikada maraqların uzlaşması

Yaxın gələcəkdə Arktika əsasən, ABŞ və Rusiyanın geostrateji təsir dairəsinə bölünəcək - həm Tramp, həm də Putin qarşılıqlı əməkdaşlıq çərçivəsində bu regionda Vaşinqton və Moskvanın geosiyasi və geoiqtisadi maraqlarını təmin etməyə çalışacaq. Bu hədəflər üzərində addımlar atılacaq:

- Hərbi-strateji və təhlükəsizlik zonalarının müəyyənləşdirilməsi
- Yeni iqtisadi zonaların əsasının qoyulması
- Regionda neft-qaz ehtiyatlarının istismarı üzərində birgə əməkdaşlıq
- Yeni beynəlxalq marşrut xətti
- Regiondan kənar güc mərkəzlərinin regiona müdaxiləsinin qarşısının alınması

Bu baxımdan Arktika regionunun gələcək taleyi ABŞ və Rusiyadan asılı olacaq.

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Şənbə üçün nəzm









**Əli Kərim**

**İki sevgi**

Gözəl qız, sən saf susan,
İki qəlb arzusunsan.
Mən səni sevirəm
Susuzluğun od vurub
köz kimi yandırdığı
dodaq su sevən kimi.
O isə səni sevir
rahatca bardaş qurub,
- Kabab üstdən sərin
su pis olmaz - deyən kimi
Gözəl qız, sən işıqsan,
Yurduma yaraşıqsan.
Mənsə səni sevirəm
iynənin ucu boyda
İşığa həsrət qalan göz
işıq sevən kimi
O isə səni sevir
Bir şən mağarda, toyda,
İşıqlardan yaranmış
yaraşıq sevən kimi.
Danış, ucalsın səsin,
Qısılmasın nəfəsin.
Mən ki səni sevirəm
Bakıdan, Daşkəsəndən
Gələn bir səda kimi,
Səs kimi,
Qüdrət kimi
O isə səni sevir,
Gizli deyil ki səndən,
Bir otaq küncündəki
qəmli sükunət kimi.
Bu mən, bu o, bu da sən,
De görək nə deyirsən!
Amma yaxşı fikir ver
bu iki məhəbbətə.
Daha heç nə demirəm
Nöqtə, nöqtə və nöqtə.

**Atamın xatirəsi**

O sərt idi. Səhər dərsə
tələsəndə mən
Bildirməzdi yolda
durub boylandığını.
Bircə dəfə söz açmazdı
qəlbindəkindən,
Söyləməzdi övlad
üçün çox yandığını.

Gizli-gizli məni süzüb
gülərdi bəzən
Durub-durub güc gələrdi
əyri qəlyana.
Övladına bircə dəfə
“can” söyləməkdən
Övlad üçün can verməyi
daha asandı ona.

Əməksevər. ağır, enli,
cod əli vardı,
Tale kimi endirərdi
çiynimə hərdən
Sərt üzünə bircə
anlıq səhər doğardı
Bilməzdim ki, hansı
nurlu düşüncələrdən.

Sevgisi də soyuq idi - təzə əkini
Hər bəladan hifz
eləyən qar kimi.
Moskvada oxuyurdum,
Tərk etdi məni.
Gələn kimi bir
əbədi ayrılıq dəmi
Gah istəyib məni görə.
Gah deyib ki mən
Qoy bilməyim
O utanıb öz ölümündən
Ah, o niyə belə etdi,
bu nə qubardı?
Nə zamansa bu
nişanda bir atam vardı.

***

Bəzən haqq qazanır
insan öləndə,
Hətta unudulur ağır günahı
Hamıya dərd olur cavan getməyi,
Oduqca az görüb, az yaşamağı...

Deyirlər:”bilsəydik, ayıq olardıq
Onu qoyardıqmı
heç gözdən iraq?
Hər bir dərdinə də çarə tapardıq,
Nə bilək, o belə az yaşayacaq?”

Eh! Bu gün nə qədər
xəyala daldım,
Eh! Qəlbim nə qədər
alışdı, dindi.
Sən mənim qədrimi biləsən deyə
Bu cavan yaşımda ölümmü indi?

**Nə xoşbəxt imişəm bir zaman Allah**

Nə xoşbəxt imişəm bir zaman,
Allah,
Xəbərim olmayıb bu səadətdən.
Nə xoşbəxt imişəm,
nə xoşbəxt,
xoşbəxt!
Bu gün eşitmişəm
bunu həsrətdən.
Niyə yazmamışam
o zaman, Allah,
Əlimə qələm də gəlməyir indi.
De, niyə aradan küləklər əsir?
Aramız, de, niyə belə sərindir?
İçdiyim o su da səadət imiş,
İşə getməyim də, qayıtmağım da.
Ona baxmağım
da xoşbəxtlik imiş,
Onu yuxusundan ayıltmağım da.
Dünya başdan-başa səadət imiş,
Mənsə bu dünyanın
qoynundayammış,

Dünya fırlanırmış
sevinc gücüylə,
Bəs indi nə olub belə dayanmış?
Göylər səadətin çətiri imiş,
Torpaq da səadət məhvəri imiş.
Gecələr toranlı vüsal məskəni,
Hər səhər,
ruhumun səhəri imiş.
Dilin quruyaydı sənin, ay həsrət,
Sən bu gün könlümü
tarımar etdin.
Ya bunu vaxtında
deyəydin mənə,
Ya da ki lal olub heç dinməyəydin.
Dünya başdan-başa səadət imiş,
Görəsən, heç bir də olarmı yenə?
Dünya başdan-başa
nə imiş dedin?
Dünya başdan-başa
nə imiş, de nə?

## Ramazan ayı:1-ci günün duası

Allahummæc-əl siyami fihi siyaməs-saiminə və qiyami fihi qiyaməl-qaimin. Və nəbbihni fihi ən növmətil-ğafilin. Vəhəb li cürmi fihi ya ilahəl-aləmin. Və-fu ənni ya afiyən ənil-mücrimin.

***Tərcüməsi:***

İlahi, bu ayda tutduğum orucu həqiqi oruc tutanların orucundan, gecələr oyaq qalmaqla etdiyim ibadətləri əsil gecə ibadətçilərinin ibadətindən qərar ver. Məni bu ayda qafillərin getdiyi yuxudan uzaq et. Bu ayda günahlarımdan keç, ey aləmlərin tanrısı. Məni bağışla, ey günahkarları bağışlayan!

## 11 ayın Sultanı...

### Ramazan ayının ilk günüdür!

Bu il Ramazan ayının ilk günü martın 1-ə təsadüf edir. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazilər Şurası Ramazan ayının başlanması ilə bağlı fevralın 27-də fətva verib. Şəvval ayının 1-i, yəni martın 30-da isə Ramazan (Fitr) bayramı olacaq.

Məlumdur ki, Ramazan ayı İslam aləmində on bir ayın sultanı olaraq adlandırılır. Bunun səbəbi Ramazan ayında müsəlmanlar üçün iki mühüm dini hadisənin baş verməsidir. Həmin hadisələrdən biri İslam dininin müqəddəs kitabı “Qurani-Kərim”in Həzrəti Peyğəmbərimizə (s.a.v.) Ramazan ayının gecələrinin birində nazil olmağa başlamasıdır. Həmin gecə “Qədr” və ya “Əhya” gecələridir, digəri isə müsəlman təqvimi ilə hicirinin 2-ci ilində (miladi təqvimi ilə 623-cü il) İslamın ibadətlərindən biri olan Orucun Allah-təala tərəfindən bütün müsəlmanlar üçün fərz buyurulmasıdır. Oruc ibadətinin Ramazan ayında fərz buyurulması səbəbilə bu ibadətin adı “Ramazan orucu” olaraq adlandırılır.

## Ramazan və Novruzun üst-üstə düşməsi

Builki Ramazan xalqımızın qədim bayramı Novruz günlərinə təsadüf edəcək. QMİ-dən verilən məlumata görə, şəri baxımdan belə əlamətdar günlərin üst-üstə düşməsi cəmiyyətdə bir çətinlik yaratmır, çünki İslamın təməl prinsiplərindən olan oruc ibadəti ilk növbədə Allahın əmridir. Allahın rəhmət və bərəkətinin gəlişinə görə oruclular üçün ruhu və qəlbləri sevindirən Ramazan da, təbiətin Rəbbül-Aləm tərəfindən yenidən oyanışının rəmzi olan Novruz da mübarək bayramlar qismindədir. Ramazanda Quran oxumaq, elm-irfan və ibadətlə məşğul olmaq, iftar süfrələri açmaq, xeyriyyəçilik etmək, ehtiyaclı şəxslərə, kimsəsizlərə, uşaq evlərinə, ahıl və qocalara köməklik göstərmək, valideynlərin qayğısına qalmaq savab əməllərdəndir və bu ənənəvi əməllər mahiyyəti etibarı ilə Novruz adətləri ilə eynidir. Çərşənbələr daxil olmaqla Novruz bayramı gecəsində açılan süfrələr iftarın saatlarına uyğun olmalıdır. Tövsiyə edirik ki, bu mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, şəhid və qazi ailələrinə qayğı və diqqət göstərilsin.




## Əvəzsiz müalicə üsulu...

Oruc tutmaq orqanizmin sağlamlığı deməkdir. Bəzi xroniki xəstəliklər orucla müalicə edilir. Oruc, eyni zamanda, bağırsaq xəstəliklərinin dərmanı olduğu kimi, bəzi dəri xəstəliklərinin sağaldılması, mədənin müəyyən müddət ərzində istirahət etməsində də əvəzsiz müalicə üsuludur. Obez xəstələrinə oruc tutmaları xüsusilə tövsiyə edilir. Çünkin obez olan şəxslər Ramazanda oruc vasitəsiylə özlərinə yemək yemə mövzusunda nəzarət etmə fürsəti tapa bilərlər. İşi, sağlamlığı ilə bağlı qayğıları olmayan insanın oruc tutması mütləqdir.

## Oruc tutmaq bu insanlar üçün risklidir...

Oruc bu gün də öz əhəmiyyətini qoruyur və aktuallığını itirməyib. Lakin Ramazan ayında oruc tutmaq bəzi insanlar üçün riskli hesab olunur. Məsələn, hamilələr, uşaq əmizdirən analar, şəkər xəstələri, ürək-damar sistemi ilə bağlı xəstəliyi olanlar, xroniki xəstəliklərdən əziyyət çəkənlər, ciddi psixoloji problemləri olanlar, yetkinlik yaşına çatmayan uşaqlar və kimyəvi terapiyaya müraciət edən xərçəng xəstələrinin oruc tutması məsləhət görülmür.

Həddi buluğa çatmayan uşaqların oruc tutması vacib deyil. Qızların 9 yaşından başlayaraq oruc tutmağa imkanı varsa, riayət edə bilərlər. Oğlanlara isə 15 yaşından etibarən sağlamlıqları, orqanizmi imkan verirsə, əməl etsinlər. Bu yaşdan kiçiklərə oruc vacib deyil.

*Yeganə BAYRAMOVA*

# Təhlükəsizliyin təminatı...

## Ümumdünya Mülki Müdafiə Günüdür

İnsan cəmiyyətinin inkişafı müxtəlif mənşəli fövqəladə hadisələrlə sıx bağlıdır. Fövqəladə hadisələr insanların məhvinə və iztirab çəkmələrinə, maddi və mədəni sərvətlərin yox olmasına, ətraf mühitin və insanların həyat tərzinin köklü şəkildə dəyişməsinə səbəb olur. Müharibələr və terror, istehsalatda, məişətdə və ümumilikdə, gündəlik həyatımızda baş verən qəzalar və fəlakətlər, təhlükəli təbiət hadisələri həyatımızın gündəlik hadisəsinə çevrilib.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının qərarına əsasən hər il martın 1-i təşkilata üzv ölkələrdə Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd olunur. Bu tarix 1972-ci ildə təşkilatın Baş məclisinin qərarı ilə müəyyənləşdirilib. Həmin gün münasibətilə mülki maarifləndirici tədbirlər təşkil edilir. Təşkilata dünyanın 50-dən çox ölkəsi üzvdür. Qeyd edək ki, beynəlxalq təşkilata üzv seçilən Azərbaycan 1993-cü ildən bu mötəbər qurumla sıx əməkdaşlıq içərisindədir.

Qurumun vəzifələri həm müasir dövrdə müharibələrin, həm də əmin-amanlıq dövründə güclü istehsalat qəzalarının və təbii fəlakətlərin, fövqəladə halların qarşısının alınması və nəticələrinin azaldılmasıdır. Tədbirlərin hər il keçirilməsində məqsəd ictimaiyyətin diqqətini bu təşkilatın vacibliyinə və həyati əhəmiyyətinə cəlb etmək, mülki müdafiə işçilərinin isə işini və fədakarlıqlarını lazımınca qiymətləndirməkdən ibarətdir.

Əhalinin mühafizəsini, fövqəladə hallardan mühafizə sahəsində hazırlığını təmin etmək mülki müdafiə orqanları qarşısında bir nömrəli vəzifə kimi dayanır. Mühafizənin əsas üsul və vasitələri isə insanların mühafizə qurğularında yerləşdirilməsi, təhlükəsiz yaşayış məntəqələrinə təxliyəsi, fərdi mühafizə vasitələrindən hamının istifadə etməsidir. Havadan hücum, zəhərlənmə və digər təhlükələr barədə vaxtında xəbərdarlıq, mühafizə üsul və qaydalarının əhaliyə öyrədilməsi də bu vəzifənin yerinə yetirilməsində vacib şərtdir.

## Əhalinin hazırlığı...

Respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması atılan mühüm addımlardan biridir.

Fövqəladə hallar zamanı əhalinin xəbərdar edilməsi diqqətdə saxlanılaraq şəhər və rayonlarda quraşdırılan elektrik sirenlərinin sazlığı mütəmadi yoxlanılır. Respublikada mülki müdafiə işinin təşkili ilə bağlı obyektlərdə taktiki-xüsusi təlim, əməli məşğələ, konfranslar, maarifləndirici tədbirlər keçirilir. Mülki müdafiə və fövqəladə hallardan mühafizə sahəsində əhalinin hazırlığı və maarifləndirilməsi təmin edilir, ictimaiyyətin diqqətinin fövqəladə hallardan qorunma və mülki müdafiənin təşkili məsələlərinə yönəldilməsi işləri davam edir. Fövqəladə Hallar Nazirliyi (FHN) əhalinin təhlükəsiz şəraitdə yaşaması və mülki müdafiə işinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilir, qarşıda duran vəzifələr barədə ətraflı məlumat verilir.




## Təbii və texnogen fəlakətlərə çevik və operativ reaksiya

FHN istənilən şəraitdə fövqəladə hallara cavab tədbirlərinin görülməsinə, təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılmasına, hadisələrə çevik və operativ reaksiya verilməsinə hər zaman hazırdır. Nazirliyin əməkdaşları mülki müdafiə işində, əhalinin və ərazilərin fövqəladə hallardan və yanğınlardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq göstərirlər.

Buna misal olaraq FHN-in xilasetmə dəstələrinin Gürcüstanda və Türkiyədə meşə yanğınlarının söndürülməsində fəal iştirak etməsini göstərə bilərik. Nazirliyin şəxsi heyətinin peşəkarlığının və digər ölkələrdə baş verən fövqəladə hadisələrin qarşısının alınmasında göstərdiyi yüksək çeviklik və fədakarlığın ən bariz nümunəsi 2021-ci ildə Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsi olub. Qardaş ölkədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyasa yayılmasının qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyəyə yola salınan FHN-in 743 əməkdaşı fədakarlıqları ilə əsl qardaşlıq örnəyi nümayiş etdirib.

*Yeganə*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4692**
**Sifariş: 403**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli